# İllik Dayanıqlı İnkişaf Hesabatı

2021

# Mündəricat


03 Akronimlərin siyahısı

04 Qunnar Panke ilə sual və cavab

06 Bir il bir səhifədə

07 Başlayaq?
**Hesabat haqqında**
Əhatə dairəsi və metodologiya
Əhəmiyyətliliyin təhlili
**Haqqımızda**
Biz kimik və nəyə əhəmiyyət veririk
Biz nə edirik və necə edirik

17 Çünki daha çoxuna layiqsən
**Bizim mükəmməlliyimiz sənin üçündür**
Müştəri yönümlülük
Məlumatların məxfiliyi və kibertəhlükəsizlik
**Dayanıqlı inkişaf göstəriciləri**
İrəliyə aparan yeganə yol
Təsirimiz

25 İşçilərimiz prioritetimizdir
**Heyətimiz**
İşçilərimizin sayı
2020-2023-cü illər üçün prioritetlər
**İşçilərə necə qayğı göstəririk**
İşçilərin inkişafı
İşçilərin rifahı
**Bizi idarə edən nümunəvi idarəetmə strukturu**
İdarəetmə strukturu və prinsipləri
Dürüstlük və şəffaflıq
Uyğunluqdan daha ötəsi
İnkişaf üçün tərəfdaşlıq

37 İnkişaf üçün tərəfdaşlıq
**Heç kəs dəstəksiz qalmır**
KSM - Cəmiyyət (hər zaman) mükafatlandırılır
Tərəfdaşlıqlar
İnsan hüquqları
**Məsuliyyətin götürülməsi**
Məsuliyyətli satınalma
Məsuliyyətli marketinq

47 Planetin mühafizəsi
**Ətraf mühitə mənfi təsirimizi minimal həddə çatdırmaq**
Bərpa olunan enerji və resurs effektivliyi
İstehlakın azaldılması

50 Son söz
**Əlavə I. Qeyri-maliyyə göstəriciləri cədvəlləri**
**Qlobal Hesabatlılıq Təşəbbüsü (GRI) indeksi**
**Beynəlxalq İqtisadi Forum, Beynəlxalq Biznes Şurası (WEF IBC) indeksi**

# Akronimlərin siyahısı

| | |
|---|---|
| **ABMS** | Rüşvətxorluğa qarşı İdarəetmə Sistemi |
| **BCM** | Biznesin fasiləsizliyinin idarə edilməsi |
| **BTS** | Baza Transiver stansiyası |
| **BİD** | Baş İcraçı Direktor |
| **CO2** | Karbon Dioksid |
| **KSM** | Korporativ sosial məsuliyyət |
| **ESG** | Ətraf  Mühit, Sosial və idarəetmə |
| **GDP** | Ümumdaxili məhsul |
| **İEYQ** | İstixana Effekti Yaradan Qazlar |
| **GRI** | Qlobal Hesabatlılıq Təşəbbüsü |
| **İR** | İnsan Resursları |
| **SƏTƏMM** | Sağlamlıq , Əməyin mühafizəsi və ətraf mühit |
| **İKT** | İnformasiya Kommunikasiya Texnologiyaları |
| **IIS** | Daxili və İnformasiya Təhlükəsizliyi |
| **ISO** | Beynəlxalq Standartlaşdırma Təşkilatı |
| **ITU** | Beynəlxalq Rabitə Birliyi |
| **LED** | İşıq diodu |
| **LTE** | Uzunmüddətli inkişaf |
| **M2M** | Avadanlıqlar arası |
| **PR** | İctimaiyyətlə əlaqələr |
| **SDG** | Dayanıqlı İnkişaf Məqsədləri |
| **SIM** | Abunəçinin Eyniləşdirmə Modulu |
| **SMM** | Sosial Media marketinqi |
| **SMS** | Qısa mesaj xidməti |
| **TCFO** | Trans Xəzər Fiber Optik kabel xətti |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |

# Qunnar Panke ilə sual və cavab



Bu il biz Baş İcraçı Direktorumuz Qunnar Panke ilə onun Nar-ın gələcək hədəf və strategiyası, mədəniyyəti və işçilərinin gələcəyi ilə bağlı baxışlarına nəzər yetirmək və dayanıqlılıq mövzusunda Nar-ın mövqeyinə aid fikirlərini bilmək üçün bir araya gəldik.

**Qunnar, biz Nar-ın gənc bir şirkət olduğunu, eyni zamanda ölkədə ən çox inkişaf edən müəssisələrdən biri olduğunu da bilirik. Siz şəxsən Nar-ı necə ifadə edərdiniz?**

Nar-ı bir sözlə təsvir etməli olsaydım, mütləq şəkildə "müştəri yönümlü" ifadəsini seçərdim. Biz xeyli müddətdir ki, şirkətimizdə müştəri yönümlülük mədəniyyətini aşılayırıq və sizi əmin edə bilərik, bu mədəniyyət ali rəhbərliyin qərarvermə prosesinə və bütün əməliyyatlara tətbiq olunur. Bu səylər Azərbaycanda müştəri məmnuniyyəti sahəsində liderə çevrilməyimizə səbəb olub. Biz ardıcıl olaraq üç il müştəri loyallığı göstəricisi üzrə lider mövqe tutmuşuq.

Eyni zamanda gəlirliliyimiz davamlı inkişaf axtarışlarımızda bizə sərbəst olmaq azadlığı verir. Yeni strategiya və ya hər hansı yeniliyi qəbul etməzdən əvvəl bütün müştəri seqmentlərimizin dəyişikliklərə hazır olduğuna əmin olmaq üçün hərtərəfli bazar araşdırması aparırıq. Müştəri yönümlülük mədəniyyətimizin bir hissəsi olaraq biz yeni xidmət və məhsulları təqdim etməzdən əvvəl bazarın hazır olduğuna əmin olmaq istəyirik.

**Nar üçün dayanıqlılığı necə ifadə edərdiniz? Fikrinizcə, Nar dayanıqlı şirkətdir?**

Nar dayanıqlılıq prinsipini strateji qərarvermə prosesində istifadə etmək baxımından böyük irəliləyişlər əldə edib. Biz başa düşürük ki, ekoloji və sosial dayanıqlılıq prinsipinin əməliyyatlarımızda tətbiqi üçün qərarlı olmaq lazımdır və bizim bunu etmək istəyimiz var. Son bir neçə ildə bizim diqqətimiz icmanın işlərə cəlb olunmasına, gender bərabərliyinə və ekoloji şüurluluğa yönəlib.

Növbəti illərdə biz kişilərin üstünlük təşkil etdiyi iş mühitində gender balansını təşviq etmək məqsədilə gender bərabərliyi ilə bağlı "Qadın danışır" və "Qadın Telekomda" adlı iki böyük layihənin icrasını planlaşdırırıq. Biz gənc qızlar üçün STEM təhsilini təşviq etmək və bununla müəyyən sahələrin qızlar üçün olmadığına dair köhnəlmiş inancları qırmaq istəyirik.

Biz, həmçinin, ətraf mühitlə bağlı fəaliyyətimizi gücləndirmişik. 2020-ci ildə biz tamamilə günəş enerjisi ilə çalışan ilk baza stansiyamızı işə saldıq, bütün qurğularımız LED işıqlandırma ilə təchiz edilib və biz məlumat saxlama mərkəzlərimizdə pulsuz soyutma sistemindən istifadə edirik. Bütün bu təşəbbüslər enerji istehlakımızın məhdudlaşdırılması ilə nəticələndi. Eyni zamanda kağız və birdəfəlik plastik qablardan istifadəni azaltmaqla tullantıların yaranmasını da azaltmışıq. Həmçinin biz adi SİM kartlarla müqayisədə plastik tərkibi 50% daha az olan ekoloji zərərsiz sim kartlardan istifadəyə keçmişik.

**Nar hər zaman qeyd edir ki, onun prioritetlərindən biri rəqəmsal baxımdan inklüziv cəmiyyətin yaradılmasıdır. Şirkətin buna nail olmasını necə təmin edirsiniz?**

Biz bütün Azərbaycan xalqına yaxınıq. Bazarda biz heç bir müştəri seqmentinə laqeyd yanaşmayan bir şirkət kimi tanınırıq. Biz həm rəqəmsal köçəriləri, həm də ənənəvi istifadəçiləri cəlb edirik, deməli, xidmətlərimiz ölkədə yaşayan gənc nəsil və yaşlı kənd əhalisi arasında bərabər səviyyədə tanınır. Yeni məhsulu istifadəyə verərkən həmin məhsulun innovativ olmasını və bütün müştərilərimizin yararlana bilməsi üçün asanlıqla istifadə oluna bilən interfeysi təmin edirik.
Digər bir fərqimiz qiymətlərimizin münasib olmasıdır. Biz Azərbaycan bazarında qiymətlər üzrə liderik. Bunun sayəsində rəqəmsal inklüzivlik hədəfimizə daha yaxın oluruq.

**Bilirik ki, Nar üçün prioritet hər zaman müştərilərdir. Bəs işçiləri də Nar üçün prioritetdirmi?**

Biz düşünürük ki, təşkilatımızda baş verənlər müştərilər və icma ilə əlaqələrimizdə əks olunur. İşçilərimiz uğurumuzun hərəkətverici qüvvəsidir və onları narahat edən hər hansı məsələləri həll etmək üçün onlarla birbaşa əlaqəni təmin edirik. Bizim "BİD ilə qəhvə" təşəbbüsümüz bu məqsədlə həyata keçirilir. Bu təşəbbüs çərçivəsində mən bir fincan qəhvə içərək işçilərlə müntəzəm qaydada birbaşa söhbət edə, onların rəylərini, fikirlərini və narahatlıqlarını dinləyə bilirəm.
Əməkdaşlarımızın strategiyamız, əsas dəyərlərimiz və hədəflərimiz barədə məlumatlı olmasını təmin etmək üçün bütün işçilərimizlə ümumi görüşlər təşkil edirik. Bu, həmçinin onları komanda fəaliyyətinə və kollektiv müzakirələrə cəlb etmək imkanı verir. Sonuncu komanda fəaliyyəti zamanı biz birlikdə velosipedlər düzəltdik, daha sonra isə onları uşaq evinə bağışladıq. Belə təşəbbüslər işçilərimizi məşğul və məmnun etməyə, eləcə də icmayönümlü şirkət kimi bizim mövqeyimizdən çıxış etməyə yardımçı olur.
Biz, həmçinin işçilərimizin hibrid iş proqramı sayəsində məsafədən çalışmasına da imkan yaradırıq. İşçilərin evdən rahat və təhlükəsiz şəkildə işləyə bilməsi üçün daxili siyasət və prosedurlarımıza dəyişikliklər etdik. Düşünürük ki, məhsuldar olmaq və mümkün qədər yaxşı işləmək üçün yalnız ofisdə oturmaq fikri artıq köhnəlib və biz əməkdaşlarımızın rahatlığını və rifahını üstün tutmaq istəyirik.

**Qunnar, Nar-ın Baş İcraçı Direktoru olaraq ən çox nə ilə fəxr edirsiniz?**

Mən fəxr edirəm ki, bizim rəqəmləri- miz öz sözünü deyir. Mən fəxr edirəm ki, Nar-ın möhtəşəm komandası ilə uzun bir yol gəlmişik və hər zamankından daha güclü qalmağı bacarmışıq. Nar-ın daha güclü və daha müştəriyönümlü əlaqə təminatçısı kimi yenidən qurulması ilə bağlı strategiyamızı həyata keçirdik. Müştəri məmnuniyyəti sahəsində lider olmağa davam etdik və müştəri itkisinin əhəmiyyətli dərəcədə azalmasına nail olduq. Biz Nar-ın sistemli şəkildə inkişafını qoruyub saxlayır, uzunmüddətli və davamlı əlaqələri inkişaf etdirmək məqsədilə müştərilərimizlə əlaqələrimizi dərinləşdirməyə davam edirik.

# Bir il bir səhifədə

**NPS ÜZRƏ LİDER**
ARDICIL OLARAQ 3-CÜ İLDƏ NPS ÜZRƏ LİDER

**1.4 mln**
AKTİV 4G MÜŞTƏRİLƏR

**204**
AZƏRBAYCANDA YENİ BTS

**2.2 mln**
AKTİV MÜŞTƏRİLƏR

**171**
ROUMİNQLƏ ƏHATƏ OLUNAN ÖLKƏLƏR

**99.8%**
SƏS XİDMƏTLƏRİNƏ ÇIXIŞ

**24**
KSM LAYİHƏLƏRİ

**124**
4G ROUMİNQLƏ ƏHATƏ OLUNAN ÖLKƏLƏR

**İLİN MOBİL OPERATORU**
2021-Cİ İLDƏ "İLİN MOBİL OPERATORU" KİMİ CASPİAN BUSİNESS AWARDS MÜKAFATINA LAYİQ GÖRÜLMÜŞDÜR

# 07 Başlayaq?

**Hesabat haqqında**

Bu bölmədə biz bu Hesabat haqqında əsas məlumatları - hesabatın necə yazıldığını, yanaşmamızın nədən ibarət olduğunu və bizim və maraqlı tərəflərimiz üçün hansı məsələlərin əhəmiyyətli olduğunu nəql edirik.

**Əhatə dairəsi və metodologiya**

Dayanıqlı inkişaf bizim üçün sadəcə layihə deyil; üzərində dəyərlərimizi qurmuş olduğumuz zəmindir. Dayanıqlı inkişaf haqqında İllik hesabatlarımızın əsas məqsədi məhz bunu əks etdirməkdir. İnanırıq ki, bu hesabatlar bizə nəinki öhdəliklərimizə daha məsuliyyətli yanaşmağa, həm də Ətraf Mühit, Sosial məsələlər və Korporativ İdarəetmə (ESG) məsələləri üzərindəki yanaşmamıza aid suallarınızı cavablandırmağımıza yardımçı olacaq.

**Əvvəlki il üzrə hesabatlarımız haqqında məlumat əldə etmək üçün aşağıdakı şəkillərə klikləyin!**










+

**...bir çox ayrı məsələlər!**

Bu hesabat maraqlı tərəflərimizin Ətraf Mühit, Sosial məsələlər və Korporativ İdarəetmə (ESG) təşəbbüslərimizi izləməsi üçün ardıcıl olaraq dərc etdiyimiz üçüncü Dayanıqlı İnkişaf Hesabatıdır (bundan sonra Hesabat). Hesabat ildə bir dəfə dərc olunduğu üçün bu Hesabatın əhatə dairəsi, başqa hal nəzərdə tutulmayıbsa, 1 yanvar 2021-ci ildən 31 dekabr 2021-ci il tarixinədək olan dövrü əhatə edir.

Daha əvvəl etdiyimiz kimi, bu dəfə də biz Hesabatı **Qlobal Hesabatlılıq Təşəbbüsünün (GRI) Standartlarına** uyğun olaraq hazırladıq. Həmçinin qərara aldıq ki, Dünya İqtisadi Forumunun Beynəlxalq Biznes Şurasının **Maraqlı tərəflərin Kapitalizm Göstəricilərinə istinad edək**. Bundan əlavə, hesabatda təqdim etdiyimiz bütün məlumatlar **Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə** uyğundur.

Maraqlı tərəflərimizə qarşı qərəzsizlik nümayiş etdirmək bizim üçün olduqca vacibdir; buna görə də, bu Hesabatın bir sıra əsas göstəricilər üzrə kənar auditi aparılmışdır. Bu barədə ətraflı məlumat əldə etmək üçün Əminlik Hesabatına nəzər salın.

**Əhəmiyyətliliyin təhlili**

Telekommunikasiya sektoru yeniliklər və istehlakçıların vərdişləri ilə transformasiya etdikcə, bizim üçün əhəmiyyət daşıyan mövzular qlobal tendensiyalarla birlikdə dəyişir. Maraqlı tərəflərimizə aid olan məsələlərlə bağlı hesabat hazırlamaq məqsədilə kənar mütəxəssislərə üz tutmuşuq. Onlar əhəmiyyətliliyin təhlilini həyata keçirmişdir. Bu bizə maraqlı tərəflərlə apardığımız dialoqun gedişatına aydınlıq gətirən əhəmiyyətli mövzuları müəyyən etməyə kömək edir.

Əhəmiyyətliliyin qiymətləndirilməsi prosesində biz beş kateqoriya üzrə qruplaşdırdığımız 15 əhəmiyyətli mövzunu müəyyən etmişik. Sonuncu kateqoriya olan "Əsas Əhəmiyyətlilik Məsələləri" ona dəlalət edir ki, bu mövzular bizim bütün fəaliyyətlərimizin zəminində duran mövzulardır.

Kateqoriyaların hər biri Hesabatda müvafiq bölmələrdə təkrar nəzərdən keçirilir. Əsas Əhəmiyyətlilik Məsələləri Hesabatda işıqlandırılır.

**Şəkil 1** Əhəmiyyətliliyin Qiymətləndirilmə Prosesi

**01** Sektordakı standartları və çərçivələri təhlil etmək

**02** Şirkətin sosial şəbəkələrdə necə yer aldığını qiymətləndirmək

**03** Müxtəlif maraqlı tərəf qruplarından rəy almaq

**04** Şirkətin sənədlərini, siyasətlərini, prosedurlarını nəzərdən keçirmək

**Şəkil 2** Nar-ın əhəmiyyətli mövzuları

## ƏHƏMİYYƏTLİ MÖVZULAR

### Planetin qorunması

- Ətraf mühitə və iqlimə təsir
- Ehtiyatlardan rasional istifadə: Enerji effektivliyi, tullantıların idarə olunması
- Sağlamlıq, təhlükəsizlik və rahat iş mühiti

### İnsan kapitalı prioritetimizdir

- Əmək münasibətləri, insan hüquqlarına hörmət və bərabər imkanlar
- Təhsil və təlim əldə etmək imkanı
- Korporativ idarəetmə

### İnkişaf üçün tərəfdaşlıq

- Korporativ sosial məsuliyyət
- Xidmətlərdən bərabər istifadə və rəqəmsal inklüzivlik
- Məsuliyyətli satınalma

### Müştəri yönümlülük

- Müştəri xidməti və məmnuniyyəti
- Kibertəhlükəsizlik və məlumatların məxfiliyi
- Xidmətlərin keyfiyyəti

### Əsas Əhəmiyyətlilik Məsələləri

- Maraqlı tərəflərlə qarşılıqlı əlaqələr
- Biznes etikası və dürüstlük
- İnnovasiya

# Haqqımızda

**Bizim kim olduğumuz və harada olduğumuz, hansı prinsiplərə əsaslandığımız, nə etdiyimiz və necə etdiyimiz haqqında məlumat əldə edin.**

### Biz kimik və nəyə əhəmiyyət veririk

Gəlin tanış olaq

Azərbaycanın ən gənc mobil operatoru olmağımıza baxmayaraq, tez bir zamanda bazarda öz yerimizi tutmuşuq. Uğurumuz illər keçdikcə artmış və nəticədə **2,2 milyondan çox aktiv abunəçi** qazanmışıq. Bu gün biz ölkənin nəinki ən gənc, eyni zamanda ən sürətlə böyüyən mobil operatoru olaraq tanınırıq.




Əhali üzrə əhatə dairəsi 99.9 %

Baş idarə
**Bakı, Azərbaycan**

Şirkətin adı
**Azerfon MMC**

Təsis edilmə tarixi
**2007-ci ilin mart ayı**

Hansı prinsiplərə əsaslanırıq

Dayanıqlı inkişafa nail olmaq məqsədilə biz şirkətimizin şəffaflıq və dürüstlük prinsiplərinə əsaslanan sağlam mənəvi təməl üzərində qurulduğundan əmin olmaq istəyirik. Bu təməl yoxdursa davamlı müsbət təsir formalaşdırmaq üçün göstərdiyimiz səylərin də  xeyri yoxdur. Dünyanı  dəyişmək üçün göstərdiyimiz səylər sayəsində Şirkətimiz daxilindəki etimad mühitinin xarici maraqlı tərəflərlə ünsiyyətimizdə də əks olunduğunu başa düşürük.

Dəyərlərimizə sadiq qalaraq, gördüyümüz hər bir işdə bu dəyərləri rəhbər tuturuq və çalışırıq ki, cəmiyyət üçün əsl dəyər yaratmaq missiyamıza nail olaq.

Şəkil 3 Missiyamız və məramımız

## Missiya

Resurslarımızı insanlara, ailələrə, bizneslərə və cəmiyyətə yaxşılıq etmək üçün istifadə etmək.

## Məram

Fərdi tələblərə uyğun hazırlanmış, lakin istifadəsi rahat məhsul və xidmətlərin göstərilməsi ilə ölkədə müştəri yönümlülüyü təmin etmək və müxtəlif müştəri seqmentlərinin ehtiyaclarını ödəmək.

Şəkil 4 Dəyərlərimiz

**01 Müştəri yönümlülük**

Müştərilərimiz üçün onların gözləntiləri-ni aşan dəyər və müstəsna təcrübələr yaratmaq.

**02 Hesabatlılıq**

Daima dürüst, etibarlı, ardıcıl və şəffaf addımlar atmaq və qərarlar almaq.

**03 Şəffaflıq**

Təəhhüdlərimizə və hərəkətlərimizə sahib çıxmağa və cavabdeh olmağa hazır olmaq.

**04 Dürüstlük**

Hər bir kəsin və hər bir resursun özünə xas dəyərini dərk etmək və hər kəsə və hər şeyə ləyaqətlə yanaşmaq.

NAR SADİQ QALIR



MÜŞTƏRİ YÖNÜMLÜLÜYƏ

MÜKƏMMƏLLİK ÜÇÜN ÇALIŞMAĞA

nar

ETİBARLI OLMAĞA



VİCDANLA HƏRƏKƏT ETMƏYƏ



# Strategiya bir seçimdir. Gəlin seçimlərimizə nəzər salaq.

### Nar olaraq, insanları seçirik.

İstər işçilərimiz və ya müştərilərimiz, istərsə də icmalarımız və ya tərəfdaşlarımız olsun, insanlar fəaliyyətlərimizin mərkəzində dayanır. Biz müştərilərə deyil, insanlarımıza xidmət edirik. Sağlam və təhlükəsiz iş mühitinin yaradılması yalnız işçilərimiz üçün deyil, insanlarımız üçündür.

### Nar olaraq, texnologiyanı seçirik

Rəqəmsal inklüziv, yaxşı idarə olunan və ekoloji cəhətdən təmiz bir dünya qurmaq üçün gördüyümüz hər bir işdə texnologiyanın tətbiqi zəruridir. Hesab edirik ki, texnologiya gördüyümüz işləri və onları necə gördüyümüzü başdan ayağa dəyişdirə, bununla da bizə davamlı müsbət təsir formalaşdırmağa imkan verə bilər.

### Nar olaraq, inklüzivliyi seçirik.

Hər gün biz insanlarımız üçün maksimal dərəcədə faydalı, habelə planetimiz üçün ən aşağı xərclərlə rəqəmsal inklüziv cəmiyyət qurmaq yolunda çalışırıq. Bununla belə, biz inklüzivlik rəqəmsal dünya ilə yetinmirik - cinsindən, irqindən, dinindən və ya yaşından asılı olmayaraq insanlar üçün mehriban iş mühiti yaratmaq istəyirik. Hər bir kəs bizim üçün önəmlidir.

### Nar olaraq, planetimizi seçirik.

İnsanlarımız bizim üçün prioritetdir və onların yaşamaq üçün bir yerə ehtiyacı var. Planetimizə, təbii ətraf mühitin qorunmasına və iqlim dəyişikliyinin təsirinin azaldılmasına yönəlmiş fəaliyyətə qarşı məsuliyyəti paylaşdığımızı qəbul edirik. "B planeti" mövcud deyil, ona görə də biz hələ uzun müddət bu istiqamətdə addımlar atmağa davam edəcəyik.

## Biz nə edirik və necə edirik

### Biz sizə xidmət edirik

Biz bir sıra standart və fərdiləşdirilmiş tariflər və paketlər, eləcə də cəmiyyətin müəyyən qrupları, məsələn, tələbələr və müharibə veteranları üçün nəzərdə tutulmuş xüsusi kampaniyalar təklif edirik. "Nar ASAN İmza" vasitəsilə müştərilərimiz şəxsiyyətlərini təsdiq edə, mobil telefonları ilə sənədləri imzalaya və digər rəqəmsal xidmətlərdən istifadə edə bilərlər. SİM abunəçinin identifikasiyası xidmətlərimiz vasitəsilə SİM sahibləri SİM kartları öz adları altında rəsmi sənədləşdirə bilərlər. Bundan əlavə, cəmiyyətə dəstəyimizi daha da artırmaq üçün müştərilərimizin YASHAT Fonduna ianə verməsi üçün bir xidmət yaratdıq.

Şəkil 5 Rouminq əhatəmiz



**171 ölkədə**
data rouminqi xidməti mövcuddur

**124 ölkədə**
beynəlxalq 4G rouminqi xidməti mövcuddur

## Bəzi rəqəmlər

Biz biznesə müştəri yönümlü yanaşmamızla fəxr edirik. Bəzi statistik məlumatlarımıza aşağıda nəzər salın.

**Şəkil 6** Nailiyyətlərimizlə bağlı göstəricilər

**2021-ci ildə 2,2 milyon aktiv abunəçi**

- Müştəri loyallığı indeksinin 50% artması
- 1,4 milyon aktiv LTE istifadəçisi
- Sosial layihələrə 5,4 milyon AZN investisiya
- Əhalinin 99.9% əhatə edilməsi

**Cədvəl 1** Aktiv müştəri sayımız və satış kanallarımız, 2019-2021

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Aktiv müştərilər | 2,251,471 | 2,170,540 | 2,241,659 |
| Mağazaların sayı | 5 | 5 | 5 |
| Diler mağazaları | 78 | 69 | 63 |
| Dilerlərin sayı | 77 | 68 | 61 |
| Eksklüziv dilerlər | 48 | 38 | 39 |
| Xidmət mərkəzi kimi fəaliyyət göstərən dierlər | 30 | 31 | 24 |
| Digər pərakəndə kanallar | 4 | 4 | 3 |

**Cədvəl 2** Nar'ın məlumat trafikinin artımı, %, 2021




**Şəkil 7** Ölkə ərazisində Nar-ın baza stansiyaları



## Maraqlı tərəflərimiz kimlərdir

Maraqlı tərəflər fəaliyyətimizin başlıca amilidir. Maraqlı tərəfləri cəlb etmə təcrübəmiz qürurvericidir. Çünki biz daima xarici maraqlı tərəflərlə bilavasitə və şəffaf əlaqələr qurmağa çalışırıq. Şəkil 8-də bunu aydın görmək olar. Bu kommunikasiya vasitələrinin uyğun olmasını və maraqlı tərəflərin maraqlarını əks etdirməsini təmin etmək üçün xarici tərəfdaşlarla müntəzəm olaraq əlaqələrimizi qiymətləndirir və qlobal tendensiyaları izləyirik. Dəyişən sənaye tendensiyaları, istehlakçı vərdişləri və pandemiya sonrası transformasiya maraqlı tərəfləri cəlb etmək üçün tətbiq etmiş olduğumuz yanaşmamızı təkrar kompleks qiymətləndirmək zərurəti doğurur. Bundan irəli gələrək, əvvəlki illərdəki hesabatlarımızda təyin olunmuş kateqoriyaları müqayisə edərək maraqlı tərəflər üzrə kateqoriyalarımızı təkrar qruplaşdırmışıq.

**Şəkil** 8 Maraqlı tərəf qrupları və rabitə kanalları



Sağlam Cəmiyyət

- Şikayətlər və birbaşa rəylər
- QHT-lər ilə əməkdaşlıq
- Sponsorluq, ianələr və KSM

KİV

- Vebsayt və SMM
- Müsahibələr və media tədbirləri
- Press relizlər

# 17

## Çünki daha çoxuna layiqsən

## Bizim mükəmməlliyimiz sənin üçündür

Bu bölmədə biz müştəriyə bağlılığımız və hər imkanda müştərilərimizə etdiyimiz sərfəli təkliflər barədə danışırıq.

### Müştəri yönümlülük

Nar olaraq, biz müştərilərimiz üçün çalışırıq. Şirkət daxilində qarşılıqlı əlaqələrimiz kənar maraqlı tərəflərlə qarşılıqlı əlaqələrimizi əks etdirdiyi üçün Müştəri yönümlülük mədəniyyətimizi bütün əməliyyatlarımızda tətbiq edirik. Bütün qərarlarımızda və fəaliyyətimizdə bu mədəniyyətin təsirini təmin etmək üçün şirkət səviyyəsində kampaniyalarımızdan başlayaraq daha kiçik və fərdi tədbirlərə qədər bir sıra addımlar atmışıq.

**2021-ci il üzrə cəmi aktiv müştəri** **2,241,659**

**ARDICIL OLARAQ 3-CÜ İLDƏ ÖLKƏDƏ MÜŞTƏRİ LOYALLIĞI GÖSTƏRİCİSİ (NPS) ÜZRƏ LİDER**

Müştəri yönümlülük fəaliyyətimizin ayrılmaz tərkibidir və müştərilərimizin dəyərli və qiymətli olduğunu onlara hiss etdirmək məqsədilə gələcəyə doğru müəyyən etdiyimiz dörd istiqamətin bir hissəsidir (Şəkil 10). Müştərilərimizi dinləmək üçün kommunikasiya xətlərimizi təkmilləşdirmək istiqamətində əlavə tədbirlər həyata keçiririk. Bu məqsədlə sosial media hesablarından müştəri suallarının cavablandırılması daxil olmaqla, onlarla birbaşa ünsiyyət yaratmaq üçün mövcud olan hər bir vasitədən istifadə edirik.

**2,3 milyon**
777 çağrı mərkəzi vasitəsilə cavablandırılmış suallar

Cavablamaq üçün orta tezlik
**5 saniyə**

Nar müştəriləri 24/7 rejimində çalışan 777 çağrı mərkəzi vasitəsilə bizimlə əlaqə yaratmaq, eləcə də NAR+ müstəqil tətbiqimiz vasitəsilə rəy bildirmək hüququna sahibdirlər. Tətbiqimizin söhbət xidməti funksiyası vasitəsilə 2021-ci ildə 66 min sorğu, sosial media hesabları vasitəsilə isə 158 min sorğu almışıq.

**2021-ci ildə NAR+ tətbiqi 803 min dəfə yüklənmişdir.**

NAR+ tətbiqimiz müştərilərə **tarif** və ya **internet paketlərinin götürülməsi, bonusların yoxlanması, xərclərə nəzarət edilməsi, onlayn dəstək** və **Nar mərkəzlərinin yerləşməsi kimi** funksiyalar təklif edir.

Biz müştərilərin rəylərinə çox ciddi yanaşırıq, çünki rəylər təkmilləşdirməli olduğumuz sahələri müəyyən etməyə və müvafiq tədbirləri planlamağa yardımçı olur. Aldığımız rəylər əsasında müştəri əlaqələrimizi yaxşılaşdırmaq müştəri məmnuniyyəti səviyyəsini artırmağa da imkan yaradır.

2021-ci ildə müştəri məmnuniyyəti üzrə

**+50%**

Müştəri yönümlülük prinsipinin bütün əməliyyatlarımıza tətbiqi ilə bağlı səylərimizin bir hissəsi olaraq müəssisə daxilindəki maraqlı tərəflər üçün bir neçə layihə həyata keçirmişik. Bunlardan biri olan **"Müştəri ilə tanışlıq"** layihəsi zamanı sənədlərlə iş şöbəsinin əməkdaşları müştəri ilə birbaşa çalışmaq, onları şəxsən tanımaq və müştəri xidməti işinin incəliklərini anlamaq üçün müştərilərlə iş şöbəsinə gətirildi. Müştəri xidməti dinamik bir iş sahəsidir, ünsiyyət, münaqişələri həll etmək, stress və emosiyaları idarə etmək kimi yüksək bacarıqların olmasını tələb edir. Əməkdaşlarımızın müştərilərlə ən yaxşı səviyyədə ünsiyyət qurmasını təmin etmək üçün belə bacarıqlar, eləcə də müştəri xidməti ilə bağlı müntəzəm təlimlər təşkil edirik.

Müştəri yönümlülük mədəniyyətimiz yalnız müştəri xidmətinin əsası deyil, həm də yeniliklər üçün stimul və daimi texnoloji inkişafın hərəkətverici qüvvəsidir. Biz fəxrlə deyə bilərik ki, 2021-ci ildə fəaliyyətimizin bütün sahələrində daha yaxşı nəticələr əldə etmişik. 2021-ci ildə 3G və 4G üzrə orta yükləmə sürətini müvafiq olaraq 13% və 12% artırmışıq. 2G və 3G səs imkanlarımız 100% artmış, 2G və 3G zənglərin kəsilmə göstəricisi isə 0% olmuşdur. Əlavə məlumat üçün, "Qeyri-maliyyə fəaliyyəti göstəriciləri" bölməsində 4-cü Cədvələ baxın.

### Rəqəmsal inklüzivlik

Rəqəmsal inklüzivlik prinsipimiz sayəsində əlaqənin heç kimi geridə qoymadan bütövlükdə cəmiyyətdə baş tutmasını təmin etmək məqsədilə xidmətlərimizi kənd icmalarına qədər genişləndirdik. İnnovativ xidmət və funksiyalarımız gənc nəsil tərəfindən bəyənilir, interfeysimizin sadəliyi və qiymətlərimizin münasibliyi isə yaşlı nəsil üçün uyğundur. Hər kəsin təklif etdiyimiz imkanlardan yararlana bilməsi üçün müştəri seqmentləri arasındakı balansı tapırıq.

Bizim uğurumuz müştərilərimizin məmnuniyyəti və loyallığı əsasında qurulub və biz bunu qiymətləndiririk. Unutmayın, siz bizim üçün **əhəmiyyətlisiniz.**

## Məlumatların məxfiliyi və kibertəhlükəsizlik

Kibertəhlükəsizlik üzrə komandamız müştərilərimizin şəxsi məlumatlarının yüksək səviyyədə təhlükəsizliyini və məxfiliyini təmin etmək üçün mümkün olan bütün səyləri həyata keçirirlər. 2020-ci ildə İT təhlükəsizliyi üzrə ISO/IEC 27001 Standartı sertifikatını əldə etdik. Məlumatların təhlükəsizliyini qorumaq üçün avtomatlaşdırılmış mühafizə sistemləri, şəbəkələrarası ekranlar, DDoS qoruyucusu və mexaniki yoxlama kimi vasitələrdən istifadə edirik.

COVİD-19 pandemiyası və Vətəndaş Müharibəsi dövründə sistemlərimizin dayanıqlılığı yoxlanıldı və kibertəhlükəsizlik üzrə komandamız məsafədən əməliyyatların təhlükəsiz və etibarlı şəkildə aparılması üçün yorulmadan çalışdı, işçilər üçün evdə çalışarkən rəqəmsal təhlükəsizlik təcrübələrinə dair rəqəmsal təlim sessiyaları keçirildi.

**2021-ci ildə məlumat sızması ilə bağlı hər hansı bir hal müəyyən etmədik.**
**Biz məlumatlarınızın təhlükəsizliyini təmin edirik.**

## Dayanıqlı inkişaf göstəriciləri

Dayanıqlı inkişaf bəzi şirkətlər üçün biznes strategiyası, digərləri üçün prioritetdir. Bizim üçün isə **dayanıqlı inkişaf irəliyə aparan yeganə yoldur.**

### İrəliyə aparan yeganə yol

Xidmət və məhsullarımızın müştərilərin istəkləri ilə üst-üstə düşməsini təmin etmək üçün ən son yenilikləri izləyirik. Müxtəlif rabitə və tədqiqat kanalları vasitəsilə qlobal tendensiyaları və yerli bazar tələblərini qiymətləndirməyimiz nəticəsində bizə aydın oldu ki, müştərilərimiz dayanıqlı inkişafı olduqca əhəmiyyətli məsələ hesab edir. Dünya miqyasında dayanıqlı məhsul və xidmətlərə tələbat artır və yerli istehlakçılar da istisna deyil.

Biz maraqlı tərəflərimiz üçün dəyər formalaşdırmağı təmin etmək istəyirik. Bu da şirkət daxilində qətiyyətli addımlar atılmasını tələb edir. Bunu düzgün şəkildə həyata keçirmək üçün biz Nar olaraq, dörd əsas istiqamətdən ibarət irəliyə aparan yolumuzu müəyyən etdik (Şəkil 10).

**Şəkil 9** İrəliyə aparan yolumuz - Nar-ın gələcəyə aparan dörd istiqaməti



## Rəqəmsallaşma

Rəqəmsal bölünməni aradan qaldırmaqla biz rəqəmsal inklüziv cəmiyyət yaratmaq məqsədimizə nail olmaq istiqamətində addımlar atırıq. Biz hər kəsin təhsil almasını, işləməsini, sahibkarlıq fəaliyyəti ilə məşğul olmasını və sosial əlaqələr qurmasını təmin edərək inkişaf etməsi üçün onlara bərabər imkanlar tanımağa çalışırıq. Hər gün biz hər kəsin öz fikirlərini ifadə edə biləcəyi bir platforma formalaşdırmaq üzərində iş aparırıq. Rəqəmsallaşdırma istiqamətində səylərimiz barədə daha ətraflı məlumatı **"Bizim mükəmməlliyimiz sizin üçündür"** bölməsindən əldə edə bilərsiniz.

**Şəkil 10** Rəqəmsallaşdırma fəaliyyətləri

**Artan müştərilər**

**Kənd icmalarına dəstək**

**Distant təhsil paketi, TƏHSİL+**

**Sərfəli B2B paketləri vasitəsilə KOB-lara dəstək**

## Müştəri yönümlülük

Müştərilərimizin özlərini dəyərli və onlara qiymət verildiyini hiss etmələrini təmin etmək istəyirik, buna görə də gücümüzü insanlarla ünsiyyət quran, onları dinləyən və onlara vaxtında və dəqiq cavab verən müəssisə yaratmağa yönəltmişik. Bu barədə daha ətraflı məlumatı "Müştəri yönümlülük" bölməsindən əldə edə bilərsiniz.

**Şəkil 11** Müştəri yönümlülüklə bağlı fəaliyyətlər

**Təkmilləşdirilmiş rabitə kanalları**

**Daha sürətli cavab nisbəti**

**Ən yüksək keyfiyyətli xidmət**

## İşçilərin rifahı

İşçilərimiz müəssisəmizin əsas dayağıdır və biz onların hər birinin özlərini qiymətli, dəyərli və önəmli hiss etdiklərindən əmin olmaq istəyirik. Birlikdə biz hər kəsin mühakimə olunmaq qorxusu olmadan özü kimi olmaqda azad olduğu bir mühit yaradırıq. Bu barədə ətraflı məlumatı "İşçilərin rifahı" bölməsindən əldə edə bilərsiniz.

**Şəkil 12** İşçilərin rifahı ilə bağlı fəaliyyətlər

**"Hibrid iş rejimi" proqramı**

**"İşçilərə yatırım" proqramı**

**İR rəqəmsallaşdırılması**

## Ekoloji şüurluluq

Ətraf mühitlə bağlı hədəflərimiz cəmiyyət qarşısında təəhhüdlərimizdən qaynaqlanır. Çalışırıq ki, ətraf mühitə sıfır mənfi təsiri olan şirkət olaq, axı biz də insanların yalnız sağlam və təbii mühitdə var ola biləcəyinə inananlardanıq. Ətraf mühitlə bağlı fəaliyyətlərimiz haqqında daha ətraflı məlumatı **"Ətraf mühitin idarə edilməsi"** bölməsindən əldə edə bilərsiniz.

**Şəkil 13** Ətraf mühitlə bağlı fəaliyyətlər

**Ekoloji SİM kartlar**

**Bərpa olunan enerji**

**LED işıqlandırılması**

## Təsirimiz

Sektorda aparıcı şirkət olaraq əməliyyatlarımızın, xidmətlərimizin və məhsullarımızın çevrəmizə və icmalarımıza təsir etdiyini başa düşürük. Lazımi cavab tədbirlərini vaxtında müəyyən etməyimizi təmin etmək üçün ətraf mühitə, cəmiyyətə və ümumilikdə iqtisadiyyata necə təsir etdiyimizi izləməyə davam edirik.

İqtisadi, texnoloji və sosial təsirlərimizi necə qiymətləndirdiyimiz haqqında daha ətraflı məlumat əldə etmək üçün oxumağa davam edin.

### İqtisadi təsirimiz

Hesab edirik ki, iqtisadi fəaliyyətimiz dayanıqlı inkişafla bağlı məramımıza tam uyğun olmalıdır. Daxili iqtisadi inkişafa nail olmaq üçün biz bir sıra biznes funksiyalarımızın ciddi restrukturizasiyası və xərclərin optimallaşdırılması prosesini həyata keçirdik, eyni zamanda əməliyyatların səmərəliliyinə və müstəsna müştəri xidmətlərinin göstərilməsinə daha çox diqqət ayırmağa davam etdik.

**Şəkil** 14 . İqtisadi prioritetlərimiz

**Əməliyyatlarımızı rəqəmsallaşdırmaqla**

Şirkətimizdə daha səmərəli fəaliyyət göstərməyə və müştərilərimizin sorğularına daha sürətli cavab verməyə imkan verən mükəmməl iş axınını təmin edirik.

**Prosesləri davamlı olaraq nəzərdən keçirməklə**

risklərin və səmərəsizliyin vaxtında müəyyən edilməsini təmin edirik. Bu da bizə profilaktik tədbirlər görməyə imkan verir.

**İnsan kapitalını prioritetimiz etməklə**

işçilərimizə sadiq qalır, insan kapitalımızı inkişaf etdirir, onlara təlimlər keçir və onları şirkətdə saxlayırıq, eləcə də onların məhsuldar və motivasiyalı qalmalarını təmin edirik.

**Müştərilərimizi seqmentlər üzrə yenidən qruplaşdırmaqla**

ən uyğun təkliflər ilə müştərilərimizə fərdi yanaşmanın tətbiq edilməsini təmin edirik.

### Texnoloji təsirimiz

Texnoloji tərəqqiyə nail olmaq üçün səy göstərməsəydik, uğurlarımızın heç biri mümkün olmazdı. Ən son texnologiyanı bazara çıxarmaq üçün əzmlə çalışırıq, bununla da müştərilərimizə daha üstün dəyər qazandırmaq məqsədilə məhsul və xidmət portfelimizi qurmağa davam edirik.

**Şəkil** 15 2021-ci ildə Nar şəbəkəsinin əhatə dairəsi




**Ərazi üzrə əhatə dairəsi**




**Əhali üzrə əhatə dairəsi**

2021-ci ildə ölkə ərazisi üzrə əhatə dairəmizi 90%-dək artırdığımızı bildirməkdən qürur duyuruq. Əhali üzrə əhatə dairəsi isə 99,9% səviyyəsində qalır.

**Cədvəl 3** Nar-ın şəbəkə tutumu, 2019-2021-ci illər

| Şəbəkə tutumu | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Orta 3G yükləmə sürəti, Mbit/s | 2,459 | 2,454 | 2,830 |
| Orta 4G yükləmə sürəti, Mbit/s | 13,822 | 13,766 | 15,676 |

**Cədvəl 4** Nar-ın şəbəkə təkmilləşdirilməsi, 2019-2021-ci illər

| Şəbəkə təkmilləşdirilməsi | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Səs əlçatanlığı | 99.82 | 99.81 | 99.82 |
| Zənglərin kəsilməsi | 0.30 | 0.36 | 0.38 |
| Məlumatların əlçatanlığı | 99.46 | 99.57 | 100 |

Davamlı olaraq texnoloji təkmilləşdirmələr həyata keçirərək 2021-ci ildə məlumat axınında 6% artıma nail ola bildik.

**Cədvəl 5** Nar-ın stansiyaları, serverləri və texnoloji mərkəzləri, 2019-2021-ci illər

| Texnoloji infrastruktur | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Baza Transiver Stansiyalarının (BTS) sayı | 8,638 | 8,549 | 8,753 |
| LTE stansiyalarının sayı | 2,738 | 2,713 | 2,849 |
| Serverlərin sayı | 44 | 45 | 25 |
| Texnoloji mərkəzlərin sayı | 6 | 6 | 6 |

**Şəkil 16** Daxili texnoloji təkmilləşdirmələr



**CVM platformasının tətbiqi**



**İR rəqəmsallaşdırılması**

## Sosial məsələlərə təsirimiz

Sosial məsuliyyətli şirkət olaraq çoxsaylı KSM fəaliyyətlərimiz və layihələrimizlə mənfi təsirlərimizin qarşısını almağa və yerli icmaya daha çox müsbət təsir göstərməyə çalışırıq. Həmçinin biz rəqəmsal xidmətlərdən istifadəni asanlaşdırmaqla daha inklüziv və daha dayanıqlı cəmiyyətin formalaşacağına inanırıq.

Cəmiyyətə müsbət töhfə vermək üçün istifadə etdiyimiz metodlardan bəziləri **Şəkil 17**-də təqdim olunmuşdur.

**Şəkil 17** Nar-ın müsbət təsir göstərdiyi sahələr

**KSM layihələri**



**İanə Platformaları**



**Rəqəmsal İnklüzivlik**




**Ətraf Mühitin Mühafizəsi**



KSM fəaliyyətlərimiz haqqında ətraflı məlumatı "KSM - Cəmiyyət (hər zaman) mükafatlandırılır" bölməsindən əldə edə bilərsiniz.

# 25

# İşçilərimiz prioritetimizdir

## Heyətimiz

**Uğurumuz artdıqca işçilərimizin sayı da artır. Bu bölmədə "pərdə arxasında" çalışan əməkdaşlarımız haqqında məlumat vermək istəyirik.**

### İşçilərimizin sayı

Bu bölmədə təqdim olunan bütün rəqəmlər 2021-ci ilə aiddir.

#### Cinsinə görə işçilərin sayı




#### Kateqoriya və cinsinə görə işçilərin sayı




#### Məşğulluğun növünə görə işçilərin sayı




#### Risk qrupunda olan işçilərin sayı



### Yaş qrupuna görə işçilərin sayı

| <30 | 30-50 | 50< |
|---|---|---|
| 38% | 59% | 3% |

### Yeni işə götürülən və işdən azad edilən işçilər

| Yeni işə götürülən | Azad edilən* |
|---|---|
| 41 | 60 |

*İşdən ayrılan ixtisaslaşmış komanda üzvlərinin bir hissəsi Azerfon üçün funksional xidmətlər göstərən şirkətin tərkibinə transfer olunmuşdur.

## 2020-2023-cü illər üçün prioritetlər

İR fəaliyyətinin effektivliyini təmin etmək məqsədilə 2023-cü ilin ortalarına qədər insan resurslarının idarə olunması ilə bağlı yerinə yetirilməsi nəzərdə tutulan bir sıra strateji prioritetlər müəyyən etmişik.

**Cədvəl 6** Nar-ın 2020-2023-cü illər üçün İR idarəetməsi üzrə prioritetləri, hədəf və tədbirləri 2020-2023.

| Prioritetlər | Hədəflər | Tədbirlər |
|---|---|---|
| **İşçilərin təcrübəsi və İR-nın rəqəmsallaşdırılması** | Müştəri təcrübəsinin təkmilləşdirilməsi | Daxili Brend Səfirlərinin təyin edilməsi |
| | Effektiv rəhbər heyətin qurulması | İcraçı komanda ilə təlimlərin, eləcə də bacarıqların təkmilləşdirilməsi ilə bağlı müntəzəm seminarların keçirilməsi |
| | İşçilər üçün rahat İR təcrübəsinin təmin edilməsi | Bütün İR əməliyyatlarının rəqəmsallaşdırılması<br>Xidmətlərin avtomatlaşdırılması |
| **Təşkilati effektivlik** | Departamentlərarası və funksiyalararası əməliyyatların təkmilləşdirilməsi | İdarə heyətinin yenidən qurulması |
| | İş və həyat balansının yaxşılaşdırılması | Hibrid proqram vasitəsilə məsafədən iş imkanlarının yaxşılaşdırılması |
| | Yeni trendlərlə uyğunlaşma və fəaliyyətimizə yeniliklərin gətirilməsi | Yeni gənc işçilərin işə götürülməsi<br>Karyera inkişafına yatırım<br>Nəzərdən keçirilməli yeni ideyalar üçün platformanın təmin edilməsi |
| **'İşçilərə yatırım'** | Yüksək səviyyədə fəaliyyət göstəricilərinin və komandaya töhfələrin tanınması | İşçilərin tanınması proqramı |
| | İşçilərə effektiv və operativ xidmətlərin göstərilməsi | İşçilərə texniki dəstək xidməti |

İR idarəetməsi üzrə prioritetlərimiz İnsan Resurslarının İdarə olunması Sistemi (İRİS) layihəsinin tətbiqi ilə bağlıdır. İRİS layihəsi çərçivəsində biz artıq Oracle Fusion vasitəsilə əmək haqqının hesablanması və yeni işçilərin qeydiyyatı proseslərini rəqəmsallaşdırdıq. Biz artıq işçilərə dəstək sisteminin, İR Texniki Dəstək xidmətinin qurulması ilə bağlı layihəni uğurla həyata keçirdik.

**Şəkil 18** Nar-ın İnsan Resurslarının İdarə olunması Sistemi layihəsinin əsas elementləri.

İnsan Resurslarının İdarə Olunması



Təlim və İnkişaf



Ödəmə və Mənfəətlər



Kadr Planlaması



## İşçilərə necə qayğı göstəririk

### İşçilərin inkişafı

İşçilərimiz bizim ən böyük resursumuzdur və istənilən uğurlu müəssisə kimi biz də işçilərimizin qayğısına qalmaq istəyirik. Biz hər bir əməkdaşın verə biləcəyi töhfələri qiymətləndirir və Nar-ın bir hissəsi olan işçilərin öz imkanlarını tam yerinə yetirə və inkişaf edə bilməsini təmin etməyə çalışırıq.

### Bilik və bacarıqların təkmilləşdirilməsi

Təhsil və inkişafın ən böyük yatırım olduğuna inanırıq. Bu səbəbdən bir müəssisə kimi biz işçilərimiz üçün sağlam təlim mühitinin yaradılması səylərimiz ilə fəxr edirik. Səylərimiz nəticəsində əməkdaşlarımız hər bir işçi üzrə təxminən 13 saat təlim keçmişlər.

**Cədvəl 7** 2021-ci ildə kateqoriya və cinsə görə işçilər üçün keçirilən təlim saatlarının cəmi sayı

| Kateqoriya | | | Cəmi |
|---|---|---|---|
| İcraedici rəhbərlik | 567 | 380 | 947 |
| Mütəxəssis | 453 | 400 | 853 |
| **Təlim saatlarının cəmi sayı** | **1,020** | **780** | **1,800** |

İşlə bağlı təlimlərdən əlavə biz müəyyən istiqamətlərdə də təlimlər təşkil edirik:

- Hesabat ilində Şirkətimiz **işçilərin motivasiya və loyallığını** inkişaf etdirmək məqsədilə rəhbər işçilər üçün təlim proqramı həyata keçirmişdir.
- İşçilər və icraçı rəhbərliyin üzvləri arasında **korrupsiya ilə mübarizə** və etika üzrə təlim sessiyalarını davam etdiririk.
- İşçilərimiz **sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi** ilə bağlı təlimlərdə iştirak edirlər.

COVİD-19 pandemiyası dövründə baş verə biləcək gözlənilməz halları nəzərə alaraq, məsafədən iş proqramımız vasitəsilə təlim sessiyalarımız əsasən onlayn şəkildə həyata keçirilmişdir.

### Karyeranın inkişafı

Komandamıza yeni qoşulan işçilər üçün şəffaf və ədalətli karyera inkişaf planını təmin etmək istəyirik. Bu, Nar-ın hər bir əməkdaşına vaxt və resurs baxımından yatırım deməkdir. Karyera inkişaf prosesinin fasiləsizliyini təmin etmək üçün hazırda effektivliyin idarə olunması sistemimizi Oracle Fusion vasitəsilə rəqəmsallaşdırırıq.

**Şəkil 19** Nar-da effektivliyin idarə olunması iyerarxiyası




Korporativ məqsədlərimiz mövcud qlobal tendensiyalar və bazar şərtləri əsasında ali rəhbərlik tərəfindən müəyyən olunur. Bununla hər bir menecer korporativ məqsədlər baxımından fəaliyyətin effektivliyinə nəzarət etmək üçün öz ƏFG-lərini müəyyən edir.

İşçilərin fəaliyyəti ilə bağlı onlara müvafiq məlumatların verilməsini təmin etmək üçün menecerlərimiz rüblük yoxlamalar və illik fəaliyyət qiymətləndirməsini həyata keçirirlər. Fəaliyyəti idarəetmə sistemimiz **20-ci Şəkildə** təqdim edilən **'nəticələrin idarə olunması'** modelinə əsaslanır.

**Şəkil 20** Nar-da nəticələrin idarə olunması prosesi




Ali rəhbərlik tərəfindən yekun qiymətləndirmə aparıldıqdan sonra effektivlik göstəriciləri yüksək olan işçilər müvafiq qaydada mükafatlandırılır, göstəriciləri aşağı olan işçilərə isə fərdi şəkildə istiqamətləndirmə və məsləhətlərin verilməsi ilə yanaşı, fəaliyyətin təkmilləşdirilməsi planı təqdim edilir. Qiymətləndirmələrdən sonra ümumi təcrübədən razı qalıb-qalmamaqlarına dair beş sualı cavablandırmaq, eləcə də hər hansı narahatlıqlarını bildirmək məqsədilə işçilərə rəy formaları göndərilir.

Rəylərin ikitərəfli şəkildə təmin edilməli olmasına dair qənaətimiz əsasında hərəkət etmək və iş prosesinə işçilərin cəlb olunmasını artırmaq məqsədilə işçilər üçün sorğu sistemi qurmuşuq.

**Şəkil 21** Nar işçilərinin sorğu prosesi

- **Surveymonkey vasitəsilə aparılır**
- **Anonim şəkildə aparılır**
- **2 həftə ərzində doldurulur**
- **80%** **2021-ci il üzrə cəlb olunma**
- **Hesabatda dərc olunan nəticələr**
- **Hazırlanmış fəaliyyət planları**

İşçilərimizin iştirakı ilə bağlı təşəbbüslərimiz bununla bitmir. Əməkdaşlarımızın səslərinin eşidilməsini təmin etmək məqsədilə bir sıra tədbirlər həyata keçiririk.

**Şəkil 22** Nar işçilərinin cəlb olunma metodları

### Rəhbərliyin görüşləri

Rəhbərliyin üzvü olan əməkdaşlarımız müntəzəm olaraq görüşürlər. Bütün görüşlər zamanı əməkdaşların işlərə cəlb olunması məsələsi müzakirə edilir

### CEO ilə qəhvə

Bu təşəbbüs CEO ilə bütün səviyyə işçilər arasında birbaşa əlaqənin qurulması üçün nəzərdə tutulub. Hər bir görüş zamanı CEO ilə görüşmək, narahatlıqlarını bildirmək və mühüm məsələləri həll etmək üçün işçilər seçilir.

### Mövcud göstəricilərin yoxlanması

Ümumi iş mühiti ilə bağlı işçilərimizin fikirlərini bilmək üçün qısa sorğular aparırıq.

### Əhəmiyyətli anlar

Biz işçi təcrübəsinin effektiv və dəyərli olmasını təmin etmək istəyirik. Bu səbəbdən İşçilərimizin Nar-dakı karyerasını dəyərli edən amillər barədə onların fikrini öyrənmək üçün dünya şirkətlərinin 16%-i tərəfindən tətbiq olunan [1]Əhəmiyyətli Anlar yanaşmasını tətbiq etməyə başlamışıq.

[1]"Əhəmiyyətli Anlar" əməkdaşların iş yerlərində ən müsbət və yaddaqalan xatirələrini bölüşməsi vasitəsilə həyata keçirilən cəlb olunma və həvəsləndirilmə mexanizmidir.

**Cədvəl 8** Fəaliyyətin effektivliyi və karyeranın inkişafı ilə bağlı mütəmadi təhlildən keçən işçilərin cinsə görə göstəricisi

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Kişi | 100% | 100% | 100% |
| Qadın | 100% | 100% | 100% |

### İşçilərin rifahı

İşçilərimiz fəaliyyətimizin əsasıdır və onlar olmadan uğur qazana bilməzdik. Biz Nar-ın hər bir kəsin inkişaf edərək uğur qazandığı, zəhmətin tanınaraq qiymətləndirildiyi bir yer olmağını istəyirik. Biz bacarıq və imkanların tanındığı və işçilərin inkişafına dəstək göstərən bir müəssisə olmaq istəyirik.

Diqqətimizi kadr inkişafına yönəldərək mühüm hadisələri nəzərdən qaçırmamağı təmin etmək istəyirik. Uğur və nailiyyətlərə doğru yarışda özünü itirmək asandır və bu, zehni rahatlığınızı poza bilər. Biz işçilərimizin rahatlıq və rifah ilə bağlı məlumatlı olmasına çalışırıq. Məsafədən iş proqramı vasitəsilə bu məqsədə qismən nail olmuşuq.

COVİD-19 pandemiyası dövründə gözlənilməz halların baş verməsi müəssisələri öz fəaliyyətlərini daha sərbəst rejimdə təşkil etməyə məcbur etdi. Bizim Şirkətimiz də istisna deyildi. Əslində biz işçilərin evdə təhlükəsiz və rahat şəkildə çalışması üçün lazımi şəraiti yaratmaqla ölkədə sərbəst iş rejiminin tətbiqini sürətləndirən müəssisələr sırasındayıq. Məsafədən iş proqramı ölkə və dünyadakı ən çətin vəziyyətlərdə fəaliyyətimizi fasiləsiz olaraq davam etdirməyə imkan verdi. Biz bütün daxili sənəd və prosedurlarımızı hibrid iş formatına uyğunlaşdırdıq və hazırda "ofisdən iş" ənənəvi yanaşmasını bərpa etməklə bağlı planlarımız yoxdur.

Pandemiya dövründə işçilərimizə qayğımız sadəcə evdən işləmək seçimini təklif etməkdən ibarət deyildi. Biz hər kəsin rahat işləyə bilməsini təmin etmək istəyirdik. Bu səbəbdən evdə uyğun iş şəraiti olmayan işçilər üçün ofis masası və erqonomik oturacaq təklif etdik.

## Bizi idarə edən nümunəvi idarəetmə strukturu

Bu bölmədə idarəetmə və təşkilati strukturumuz, dürüstlük və şəffaflığı necə qoruyub saxlamağımız, böhran və risklərin idarə edilməsi sistemlərimiz haqqında bəhs edəcəyik.

### İdarəetmə strukturu və prinsipləri

2005-ci ildə təsis edilmiş şirkət olaraq, uzun yol qət etmişik. Müştərilərin üstünlük verdiyi xidmət təminatçısı olaraq bazarda öz mövqeyimizi formalaşdırmağa çalışmışıq. Yer aldığımız mövqeyə çatmaq üçün məramımızın və strateji konsepsiyamızın ən yüksək etik standartlara cavab verməsi üçün əlimizdən gələni etmişik, bununla bərabər sektorun ən qabaqcıl təcrübələrini yerli bazara uyğun şəkildə inteqrasiya etmişik.

**Şəkil** 23 Nar-ın təşkilati strukturu və məsuliyyətləri




Rəhbər strukturlarımız əməliyyatlarımızın və ümumi biznes konsepsiyamısın Şirkətimizin missiyasına, məramına, dəyərlərinə və strategiyasına tam uyğun olmasını təmin etmək üçün çalışır. Bu işdə onları istiqamətləndirmək üçün biz "daha çox" adlı dörd prinsipi müəyyən etmişik.

**Şəkil** 24 Nar-ın dörd "daha çox" prinsipi



Dörd "daha çox" prinsipimiz bizə real dəyər qazandıran biznes modeli qurmağa imkan verir. Hər kəsə gedib çata bildiyimizdən və hər kəs üçün əlçatan olduğumuzdan əmin olmaq üçün maraqlı tərəflərimizlə yeni rabitə kanalları yaratmağa davam edirik. İşçilərimizə daha çevik imkanlar tanıyaraq, onların həm zehni, həm də fiziki sağlamlığını qoruyur, bununla da iş-həyat arasında tarazlıq mədəniyyəti formalaşdırırıq. Sektorda nümunəvi işəgötürən olmağa çalışırıq, bu o deməkdir ki, işçilərimiz üçün əlimizdən gələni edirik, bu da bizi sevindirir.

Texnologiyada davamlı baş verən yeniliklər və təkmilləşdirmələrdən yararlanaraq xidmətlərimizi və məhsullarımızı ayrı-ayrı fərdlərin və biznes qurumlarının tələblərinə uyğunlaşdırmaqla, biz hər kəsə sosial və iqtisadi mühitdə inkişaf etmək və yaxşı həyat sürmək imkanı tanıyan platforma qururuq.

Əməliyyatlarımızın tamamilə şəffaf olması üçün tədbirlər görməklə biz dürüst və məsuliyyətli mühit yaradırıq. Şirkətimizdə dürüstlük və şəffaflıq prinsipləri haqqında daha ətraflı məlumat əldə etmək üçün növbəti bölməyə nəzər salın.

## Dürüstlük və şəffaflıq

Biz əməliyyatlarımızda saxtakarlıq və xəta hallarını minimal həddə tutmaq üçün ciddi daxili nəzarət tədbirləri həyata keçirmişik. Görülən tədbirlər sırasında bəzi daxili siyasətlər, normativ sənədlər, hesabatlılıq sistemi və vəzifələrin aydın bölüşdürülməsi yer alır.

**Cədvəl 9** Nümunəvi idarəetməyə dair tənzimləyici siyasətlərimiz və sənədlərimiz

| Qaydalar | Səlahiyyətlər |
|---|---|
| Etika Məcəlləsi | İşgüzar davranışının ən yüksək etika və şəffaflıq standartlarına uyğun olmasını təmin etmək. |
| Davranış Qaydaları | İşçilərin və üçüncü şəxslərin davranışlarının bizim davranış normaları və qaydalarımıza tam uyğun olmasını təmin etmək. |
| Təchizatçılar üçün Davranış Qaydaları | Təchizatçıların işgüzar davranışlarının yoxlanılmasını təmin etmək, həmçinin satınalma prosesinin şəffaf olmasını təmin etmək |
| İnsan Hüquqları Siyasəti | Biznes əməliyyatlarının insan hüquqlarını pozmamasını və beynəlxalq standartlara tam uyğun olmasını təmin etmək. |
| İşə qəbul Siyasəti | İşə qəbul prosesinin açıq, ədalətli və effektiv olmasını təmin etmək. |
| Biznesin Davamlılığı Siyasəti | Risklərin və imkanların vaxtında müəyyən edilməsini və müvafiq cavab tədbirlərinin həyata keçirilməsini təmin etmək. |
| Müxtəliflik və İnklüzivlik Siyasəti | İrq, cins, yaş, ailə vəziyyəti, dini, etnik mənsubiyyət və ya hər hansı digər potensial ayrı-seçkilik hallarının qarşısının alınmasını təmin etmək. |
| SƏTƏMM Siyasəti | Bütün işçilərin, podratçıların, təchizatçıların və təchizatçıların işçilərinin sağlamlığının və təhlükəsizliyinin beynəlxalq standartlara və yerli normativlərə uyğun olmasını təmin etmək. |
| Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqələr | Bütün maraqlı tərəf qrupları ilə effektiv əlaqələr qurmaq üçün müvafiq kanalların yaradılmasını təmin etmək. |
| İcmaların Cəlb Olunması Siyasəti | Xidmət göstərdiyimiz icmalarla lazımi kommunikasiya və əlaqənin olmasını təmin etmək. |
| Antikorrupsiya Siyasəti | Korrupsiyanın qarşısının alınması və aşkar edilməsi üçün nəzarət və hesabatlılıq sisteminin mövcud olmasını təmin etmək. |

Nar-da dürüstlüyü və şəffaflığı təmin etmək üçün yazılı siyasətlərimiz və sənədlərimizlə kifayətlənmirik. Beləliklə, 2019-cu ildən bəri biz korrupsiyaya qarşı mübarizə və şəffaflıq sisteminin bütün daxili prosedurlara inteqrasiyası üçün nəzərdə tutulmuş "Dələduzluq və Korrupsiyaya Qarşı Sıfır Tolerantlılıq" layihəsini həyata keçiririk. Şəffaflığı təmin etmək yönündə görülən tədbirlər çərçivəsində şikayətlərə baxılma mexanizmi yaratmışıq. Bu mexanizm hər hansı potensial korrupsiya və ya komplayens tələblərinin pozulma hallarını bizə çatdırmasını asanlaşdırmaq üçün maraqlı tərəflərimizin istifadəsinə verilib.

Missiyamız, məramımız və dəyərlərimizlə tanış olması üçün işə yeni qəbul olunmuş bütün işçilərimizə mütləq şəkildə təlim keçirik. Keçirdiyimiz təlimlərə həmçinin korrupsiyaya qarşı mübarizə mövzusunda təlimlər də daxildir.

**Şəkil 25** 2021-ci ildə korrupsiyaya qarşı mübarizə mövzusunda təlim keçmiş işçilərin sayı

**139** **2021-ci ildə korrupsiyaya qarşı mübarizə mövzusunda təlim keçmiş işçilər**

## 2021-ci ildə heç bir korrupsiya və ya dələduzluq halı qeydə alınmamış və ya bizə bildirilməmişdir.

### Hazırlıqlı olmaq

Şirkət olaraq biz, üzləşdiyimiz hər bir çətinliyi imkan daxilində ən yaxşı şəkildə həll etməyə çalışırıq. Bu çətinlikliklər bizə dəyişmək və ətrafımızda daima inkişafda olan mühitə uyğunlaşmaq imkanı qazandırır. Bu çətinlikləri nə dərəcədə fürsətə çevirdiyimizi yoxlamaq üçün böhranlara adaptasiya sistemi işləyib hazırlamışıq.

**Daha Çox Çatinlik** → **Daha Çox Transformasiya**

Böhranların İdarə Edilməsi departamenti Biznesin Davamlılığı və SƏTƏMM departamentləri ilə birgə çalışıraq şirkətimizə riskləri və imkanları vaxtında müəyyən etməyə imkan verir, bu da bizə onları operativ və vahid metodologiya ilə həll etməyə kömək edir.

**Şəkil 26** Biznesin davamlılığının idarə edilməsi.




Biznesin davamlılığı strategiyası ISO 22301 Biznesin davamlılığının idarə edilməsi sisteminə uyğun olaraq hazırlanmışdır. Bu strategiya vasitəsilə biz həm texniki, həm də sosial risklərə cavab vermək üçün təsirin azaldılması və bərpa tədbirlərini işləyib hazırlayırıq.

Böhranı idarəetmə çərçivəmiz hər hansı ekoloji, sosial və ya iqtisadi böhranlar yarandıqda onların həllində bizə kömək edir. Bu çərçivə vasitəsilə biz ölkədə və dünyada baş verən ən gözlənilməz vəziyyətlərə uyğunlaşmağa nail oluruq. Bu yolla, COVID-19 pandemiyası və 2020-ci il Vətən Müharibəsi dövründə həyat tərzimizin pozulmasına baxmayaraq, fəaliyyətimizi rahat şəkildə davam etdirdik. "Hibrid iş rejimi" proqramımız COVID-19-un yayılmasının fiziki təhlükəsinə cavab versə də, Vətən Müharibəsi zamanı xarici kiberhücumlar məsələsi xüsusilə vacib idi. Effektiv və adekvat tədbirlərimiz sayəsində biz bu təhdidlərə tez uyğunlaşmağa və dayanıqlılığı artırmağa nail olduq.

## Uyğunluqdan daha ötəsi

Bizim üçün Sağlamlıq, Əməyin təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi (SƏTƏMM) funksiyası yalnız qaydalara və beynəlxalq standartlara uyğunluğu təmin etmir, o cümlədən işçi heyətimizə, icmalarımıza və ətrafımıza həqiqətən önəm verdiyimizi nümayiş etdirir. Gördüyümüz hər bir işdə beynəlxalq standartlara və yerli qanun və qaydalara əməl edirik, eyni zamanda hər hansı potensial SƏTƏMM risklərinə qarşı cavab tədbirlərimizin hərtərəfli və vaxtında yerinə yetirilməsini təmin etmək üçün əlimizdən gələni edirik. Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi Siyasətimiz rəhbərliyimizin SƏTƏMM sahəsində atdığı addımları əks etdirir və əməkdaşlarımızda təhlükəsizlik prosedurları ilə bağlı anlayış yaradır. Hazırda biz ISO 45001 Peşə Sağlamlığı və Əməyin Təhlükəsizliyi sertifikatını almaq üzrəyik.

Şirkətimiz COVID-19 pandemiyası ilə əlaqədar olaraq 2020-ci ilin mart ayından hibrid (həm məsafədən, həm də iş yerində növbəli) iş rejiminə keçmişdir. Pandemiya dövründə SƏTƏMM komandamız əməkdaşlarımızın təhlükəsizliyini və fiziki sağlamlığını təmin etmək üçün yorulmadan çalışmış, hər kəsin ofisdə əməl etməli olduğu qaydaları və təlimatları hazırlamış və komandalarımızın sağlamlıq vəziyyətinə diqqətlə nəzarət etmişdir. Nar test nəticələri müsbət olan şəxslə təmasda olan insanların pulsuz COVID-19 testindən keçmələri üçün ölkədə ilk olaraq tibb mərkəzi ilə müqavilə imzalayan şirkətlərdən biri olmuşdur. Dünyada maska çatışmazlığı səbəbilə bunun demək olar ki, mümkünsüz olduğu bir vaxtda biz işçilərimizə maskalar da paylamışıq.

Bütün əməkdaşlarımızın SƏTƏMM siyasəti və prosedurları ilə tanış olmasını təmin etmək üçün onlarla müxtəlif rabitə kanalları vasitəsilə müntəzəm olaraq əlaqə saxlayırıq. SƏTƏMM prosedurlarımız haqqında ümumi bilik və məlumatlılığı yoxlamaq üçün şirkətdəki bütün işçilərə məcburi qiymətləndirmə ilə bağlı elektron poçt üzərindən məktublar göndəririk. İşə yeni qəbul olunan bütün işçilər komandamıza qoşulduqda SƏTƏMM üzrə məcburi təlimlərdən keçir.

**2021-ci ildə işçilərimizin 100%-i SƏTƏMM üzrə təlimlərdən keçmişdirlər**

Biz bütün iş yerlərimizi və əməliyyatlarımızı mümkün SƏTƏMM riskləri üzrə mütəmadi olaraq monitorinq edir və nəticələri daxili hesabatlarda dərc edirik. Bu hesabatlarda əməkdaşlarımızı məlumatlandırmaq üçün nailiyyətlərimiz, bütün prosedur və siyasətlərimiz də öz əksini tapır. İlkin qiymətləndirmədən sonra risklər təsir göstərdiyi sahələr üzrə qruplaşdırılır. Riskin ölüm hadisəsi ilə nəticələnmə ehtimalı varsa, bu risk ən yüksək prioritet olaraq qiymətləndirilir.

**Cədvəl** 10 SƏTƏMM riskləri və onların aradan qaldırılması üçün müvafiq tədbirlər

| | |
|---|---|
| **Baza stansiyalarında təhlükəsizlik riskləri** | Telekommunikasiya sektorundakı risklər insanların adətən qruplar halında birlikdə işlədiyi digər sahələrdəki risklərdən fərqləndirən cəhət ondan ibarətdir ki, mobil rabitə qüllələrində yalnız bir nəfərin işləməsi tələb olunur. Biz bu şəraitdə işləyən insanlar üçün təhlükəsizliyin və nəzarətin təmin edilməsi yollarını müəyyən etmişik. Bu səbəblə, biz müxtəlif rabitə kanalları vasitəsilə mobil rabitə qüllələrində işləmək üçün yola çıxan insanlara nəzarət edir və qüllədə işləmək üçün yola çıxan hər kəsin təhlükəsiz vəziyyətdə olduqlarını bildirməsi üçün bizə vaxtında cavab verməsini təmin edirik.<br>Həmçinin biz, işçilərin mobil rabitə qüllələrində təhlükəsiz şəkildə işləməsini təmin etmək üçün bazarda ən yaxşı təhlükəsizlik avadanlıqlarını əldə etmişik. |
| **Məsafədən iş rejimi ilə bağlı risklər** | Həmçinin biz məsafədən iş rejimi ilə bağlı riskləri qiymətləndirmiş və evdən işləmə üzrə SƏTƏMM siyasətini qəbul etmişik. Bu siyasətin müddəalarından biri ondan ibarətdir ki, işçinin evində iş masası və erqonomik stulu yoxdursa, işçinin rəsmi müraciəti əsasında biz onu iş masası və erqonomik stul ilə təmin edirik. Həmçinin biz bütün daxili siyasətlərimizi məsafədən işləmə şəraitinə uyğunlaşdırmışıq. |
| **Satınalma riskləri** | Müqavilə imzalamazdan əvvəl təchizatçılarımızın SƏTƏMM sahəsində fəaliyyət göstəriciləri qiymətləndirilir. Bundan əlavə, icarəyə götürdüyümüz binalarımızın podratçılarınında da təhlükəsizlik standartlarına cavab verib verməməsi qiymətləndirilir. |
| **Ekoloji risklər** | Sektorumuzda ən çox narahatlıq doğuran ekoloji problemlər generatorların buraxdığı istixana effekti yaradan qazların (İEYQ) emissiyaları və data mərkəzlərinin enerji intensivliyidir. Yerli icmaların narahatlığına səbəb olmaması üçün biz data mərkəzlərimizi şəhərdən kənarda qururuq. Enerji intensivliyinin ətraf mühitə təsirlərinə gəldikdə isə qeyd etməliyik ki, bu sahədə həyata keçirdiyimiz bir sıra təşəbbüslər nəticəsində bununla əlaqədar bütün müvafiq göstəricilərimiz getdikcə azalmaqdadır. |

Biz başa düşürük ki, telekommunikasiya sahəsində işləmək müxtəlif təhlükəli şəraitdə görülən işləri ehtiva edə bilər. (Məsələn, hündür mobil rabitə qüllələrində işləməkdən təhlükəli elektrik avadanlıqları ilə işləməyə qədər). Potensial təhlükə daşıyan işlərdə belə işçilərimizin sağlamlığını və təhlükəsizliyini qorumaq üçün onlara lazımi avadanlıq və şərait təmin edirik.

**Cədvəl** 11 SƏTƏMM xərcləri, AZN

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Əmək şəraitinin yaxşılaşdırılması ilə bağlı xərclər | 41,000 | 93,000 | 50,100 |
| COVID-19 ilə bağlı xərclər | - | 204,000 | 400,000 |

# 37

# İnkişaf üçün tərəfdaşlıq

# Heç kəs dəstəksiz qalmır

## 'Heç kəsi dəstəksiz buraxma' Nar-ın hər bir fəaliyyətə qarşı yanaşmasıdır.

KSM - Cəmiyyət (hər zaman) mükafatlandırılır

Nar fəaliyyətə başladığı ilk günlərdən qayğıkeş şirkət kimi tanınıb. Biz fəaliyyətimizin yerli insanlara və onların həyatlarına necə təsir göstərdiyinə diqqət edirik. Buna görə də yalnız müsbət təsir buraxmaq üçün əlimizdən gələni edirik. İcma fəaliyyətimiz strukturlu və sistemli təşkil edilib - biz insanlara həqiqi fayda verən perspektivli layihələr həyata keçirir, cəmiyyətdə nəzərəçarpacaq və hərtərəfli dəyişikliklər yaradırıq. Ölkədəki stereotipləri və köhnə təsəvvürləri qıraraq transformasiya dövrünə töhfələr vermək istəyirik.

**2021-ci ildə sosial sahəyə yatırım 5,4 milyon AZN olmuşdur**

Bizim KSM strategiyamız yalnız fəaliyyətimizi müəyyən etmir, bu strategiya bizim kimliyimizi müəyyən edən bir vasitədir.

**Şəkil 27** KSM prinsiplərimiz




Bilik

Təhsil çiçəklənən cəmiyyətin əsasıdır. Biz gənc nəsli əyləncəli və interaktiv üsullarla təhsilə və intellektual fəaliyyətlərə cəlb edən layihə və təşəbbüslər vasitəsilə cəmiyyətdə nəzərəçarpacaq dəyişikliklər etmək istəyirik.

Buna nail olmaq üçün biz təklikdə və yerli universitetlər, qlobal peşəkar təşkilatlar kimi tərəfdaşlarla əməkdaşlıq edirik. Biz ianələr, təqaüdlər verir, sərfəli xidmətlər yaradır və tədbirlər təşkil edirik. Təşəbbüslərimiz sayəsində sağlam rəqabət ruhu artır, yaxşı komanda işinə həvəs yaranır və səylər qiymətləndirilərək mükafatlandırılır. Ölkədə təhsilin inkişafına göstərdiyimiz dəstəklə daha ətraflı **28-ci Şəkildə** tanış ola bilərsiniz.

**Şəkil 28** Nar-ın təhsillə bağlı təşəbbüsləri




## Canlı Kitab

Canlı Kitab İnternet üzərindən pulsuz istifadə oluna bilən Azərbaycan dilində ən böyük audiokitab platformasıdır. Bu genişmiqyaslı layihə vasitəsilə biz görmə məhdudiyyətli insanlar üçün daha çox seçimlər verməklə Azərbaycan dilinə tərcümə edilmiş audiokitab çatışmazlığını aradan qaldırmaq istədik. Bu günə qədər artıq ictimaiyyətə açıq məlumatlar bazasına 600 kitab yüklənmişdir.

## Oxu Saatı

Biz gənc auditoriyamızı daha çox oxumağa həvəsləndirmək istəyirik. Bunun üçün isə ən yaxşı üsul onlar üçün oxumaqdır. Bizim Oxu Saatı layihəmizdə ölkənin tanınmış şəxsləri canlı yayımda bir saat kitab oxumağa dəvət edilirlər.
İlk belə oxu saatı Azərbaycanın görkəmli yazıçısı Çingiz Abdullayev, növbəti oxu saatı isə Azərbaycanın tanınmış müğənnisi Zülfiyyə Xanbabayeva tərəfindən aparılmışdır.






## Azərbaycan dilində işarə dili lüğəti

İnsanlar arasında ünsiyyət və əlaqə tez-tez nəzərə almadığımız məqamdır. Lakin biz istəyirik ki, nitq qüsuru olan insanlar da cəmiyyətin digər üzvləri ilə eyni dərəcədə sərbəst ünsiyyət qura bilsinlər. Bu məqsədlə biz Azərbaycan dilində işarə dili lüğətini əks etdirən ilk ictimaiyyətə açıq onlayn platforma yaratdıq. Platformada hər bir kəsin öyrənə biləcəyi təxminən 3000 işarədən ibarət şəkil və videolar əks olunur.

## Tələbələr üçün İKT təlimləri

Universitetlər və peşəkar təşkilatlarla tərəfdaşlıqlarımız vasitəsilə biz tələbələr və oxşar peşəkarlar üçün müntəzəm olaraq təlim sessiyaları təşkil edirik. Təlim sessiyalarımızın mövzusu əsasən mobil şəbəkə, rabitə, İKT texnologiyaları və peşəkar inkişaf ətrafındadır.



## Breyn Rinq

Breyn Rinq ölkənin ən parlaq gənclərinin, hökumət rəsmilərinin və iş adamlarının dünyagörüşü və maraqlı faktlar barədə biliklərinin yarışından ibarət ən məşhur intellektual oyundur. Biz uzun müddətdir ki, ölkədə keçirilən intellektual yarışları həvəslə dəstəkləyirik və inanırıq ki, intellektual idman gənclərin və daha geniş auditoriyanın biliklərinin inkişafına müsbət təsir edir.





## Təqaüdlər, İanələr və Sponsorluqlar

Müxtəlif tərəfdaşlarımız ilə birlikdə perspektivli gənc tələbələr və Vətən Müharibəsində ailə üzvlərini itirmiş şəxslər üçün təqaüd fondu yaratmışıq. Bir sıra hallarda biz ibtidai sinif şagirdlərinə məktəb ləvazimatları və yüksək nəticələr göstərən abituriyentlərə hədiyyələr vermişik. Həmçinin, təlimin əyləncəli şəkildə aparılması üçün bir sıra tədbirlərə, təlim sessiyalarına, intellektual oyunlara sponsorluq edirik.

## Qarabağ Azərbaycandır

"Qarabağ Azərbaycandır" Nar-ın dəstəyi və Azərbaycan, Ukrayna, Türkiyə, Rusiya və Hindistanın iştirakı ilə onlayn formatda keçirilən blits-turnir idi. Turnirlər silsiləsi iki ay davam etdi və hər turnir azad olunmuş rayonun adı ilə adlandırıldı.







## Gələcəyini Qur

Gələcəyini Qur layihəsi vasitəsilə biz yüksək potensiala malik gənclərin təhsildə və daha sonra karyeralarında nailiyyətlər qazanması üçün onlara dəstək göstəririk. Bu layihə 2014-cü ildən etibarən Təhsil Nazirliyinin dəstəyi ilə həyata keçirilir və layihə çərçivəsində ekskursiyalar, təlim və tədbirlər təşkil olunur, o cümlədən az gəlirli ailələrdən olan tələbələrə psixoloji dəstək göstərilir və onların şəxsi inkişafı təşviq edilir.

Biz xidmət etdiyimiz insanları və iş yerimizi sevirik. Yerli icmaya dəstək göstərərək Azərbaycanın mədəni və milli irsinə sevgimizi ifadə etməyə çalışır, cəmiyyətimizdə vətənpərvərlik hissini aşılayırıq. Biz Azərbaycan torpağının və xalqının təklif etdiyi dəyərləri vurğulayan layihələrimiz ilə qələbə, ənənə və mədəniyyətimizi dəstəkləyirik.




## Yaşa, Azərbaycan!

'Yaşa, Azərbaycan!' kampaniyası ilə biz Vətən Müharibəsi iştirakçılarını dəstəkləyir və onların uşaqlarına təqaüdlər veririk. Biz həmçinin, "Əzizim" və "Bir qrup insan" adlı film və "Veteran Müəllimlər" adlı kitab kimi vətənpərvər mövzuların yaradılmasında kinematoqraf və yazıçılara dəstək göstərdik.

## Bayraq Günü tədbirlərimiz

Azərbaycanın milli irsini əhatə etmək üçün biz fəal şəkildə milli bayramların qeyd olunmasında iştirak edirik. Biz müştərilərimizi və daha geniş auditoriyanı müxtəlif təşəbbüslər vasitəsilə belə bayramların qeyd olunmasında iştirak etməyə təşviq edirik. Məsələn, Milli Bayraq Günündə müştərilərimizə bayraqlar təklif etdik, Silahlı Qüvvələr Günündə əsgərlərimizə baş çəkdik və Novruz bayramında həlak olmuş əsgərlərin ailələrinə hədiyyələr verdik.






## Netty-2021 İnternet Mükafatı

Azərbaycandakı yenilikləri dəstəkləmək məqsədilə biz insanları onların kreativliyinə, səylərinə və resurslarına görə mükafatlandırmaq istəyirik. Bu niyyətlə biz NETTY-2021 İnternet Mükafatını dəstəkləmək üçün NETTY təşkilatının komitəsi ilə tərəfdaşlıq edirik. NETTY Mükafatı 2004-cü ildə Ümumdünya Şəbəkəsi və İT sahəsində yerli nailiyyətlərin tanınmasında ilk milli mükafat kimi yaradılmışdır.

## Təhsil+ paket və məsafədən təhsil

Biz xüsusilə ölkədə COVİD-19 pandemiyası ilə bağlı hallara operativ və hərtərəfli cavab verməyimizlə fəxr edirik. Təhsil sektorunun fasiləsiz fəaliyyətini, eləcə də bütün yaş qrupundan olan tələbə və müəllimlərin öz dərslərini davam etdirə bilmələrini təmin etmək üçün qısa bir zamanda bütün platformalarda istifadə oluna bilən Teams və Zoom trafikləri, o cümlədən Windows, MacOS, iOS və Android üçün 50GB həcmində və münasib qiymətə TƏHSİL+ məlumat paketini hazırladıq.






## Xeyriyyəçilik və İanələr

Biz davamlı şəkildə yardıma ehtiyacı olan təşkilatlara və insanlara ianələr verməyin yolunu tapırıq. Vətən Müharibəsində həlak olan hərbiçilərin ailələrinə hədiyyələr verir, müharibə iştirakçılarına endirimlər təklif edir, ölkəmizə xidmət edən əsgərlərlə görüşür və daha çox insanların xeyriyyə məqsədilə ianələr verməsi üçün platformalar yaradırıq.

## Gənclərin Cəlb Olunması

Gənclər ölkəmizin gələcəyidir. Biz tədbirlər, təlimlər və müharibə iştirakçısı və həlak olmuş əsgərlərin uşaqları üçün keçirilmiş "Qəhrəmanların Övladları" adlı idman yarışı kimi müxtəlif idman tədbirləri keçirməklə Azərbaycanın gənclərini təhsil və mədəniyyət fəaliyyətlərinə cəlb etmək istəyirik. Biz Naxçıvan Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti və ADA universiteti kimi tərəfdaşlıq etdiyimiz universitetlərin tələbələri üçün bir sıra təlim sessiyaları keçiririk.



### Tərəfdaşlıqlar

Bir şirkət olaraq əldə etdiyimiz uğurlarla fəxr edirik, həmçinin bilirik ki, bu uğur iki tərəfin sayəsində qazanılıb. İllərdir ki, birgə təşəbbüslərlə cəmiyyətə fayda vermək üçün QHT-lər, universitetlər, xeyriyyə fondları və digər qurumlar ilə əməkdaşlıq edirik. Tərəfdaşlarımız və birgə gördüyümüz işlər barədə əlavə məlumat üçün 29-cu Şəklə baxın.

**Şəkil 29** Nar-ın tərəfdaşları

| | | | |
|---|---|---|---|
| Azerbaijan Technical University | Nar və AzTU arasında Anlaşma Memorandumuna əsasən illər ərzində bir sıra maraqlı layihələr həyata keçirmişik. | Təlim<br>Peşəkar görüşlər və məlumat mübadiləsi | 2015 |
| ADA University | ADA gənclər üçün yüksək səviyyədə təhsil və imkanlar təmin etməklə bölgədəki aparıcı təhsil müəssisələrindən sayılır. Tədbirlər və əmək yarmarkaları vasitəsilə ADA Universiteti ilə yaxından tərəfdaşlıq edirik. | Əmək yarmarkaları<br>Gənclərlə bağlı tədbirlər<br>Seminarlar<br>Təqdimat və mühazirələr | 2017 |
| AMCHAM American Chamber of Commerce in Azerbaijan | Amerika Ticarət Palatası ölkədə biznes üçün daha əlverişli mühit yaratmağa davam etdiyi üçün bu təşkilata üzvlüyümüzü hər il yeniləyirik. | Müntəzəm görüşlər<br>Seminarlar<br>Siyasətlə bağlı rəy sessiyaları | 2019 |
| Naxçıvan Dövlət Universiteti NDU | Yüksək perspektivli tələbələrə təqaüdlərin verilməsi məqsədilə biz 2019-cu ildən Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlıq edirik. 2020-ci ildə baş vermiş Vətən Müharibəsindən sonra həlak olmuş hərbiçilərin ailələrindən olan tələbələrə daha böyük dəstək göstərmək qərarına gəldik. | Təqaüd fondu<br>Təlimlər | 2018 |
| TƏBİB Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi | TƏBİB ilə birlikdə ölkədə COVİD-19 pandemiyası ilə mübarizəyə töhfəmizi verdik, o cümlədən xəstəliyin sürətlə yayıldığı zamanda zərərə məruz qalan şəxslərə yardım etdik. | TƏBİB tətbiqini yükləyən hər bir kəs üçün pulsuz məlumat<br>Tibbi mərkəzlər və karantin xəstəxanaları üçün pulsuz ödəmə kartları | 2020 |
| YAŞAT Qələbəni bizə yaşadanları | Müharibə iştirakçılarına, həlak olmuş əsgərlərin ailələrinə və 2020-ci il Vətən Müharibəsinin zərərlərinə məruz qalmış insanlara dəstək göstərmək üçün YAŞAT Fondu ilə əməkdaşlıq edirik. | İanə platforması<br>Birgə layihələr | 2020 |
| Baku Book Center | Bakı Kitab Mərkəzi ilə birlikdə cəmiyyətimizdə asudə vaxtlarda kitab oxumağın müxtəlif əyləncəli və interaktiv tədbirlərlə təbliğinə aid işlər görürük. | Kitab oxuma tədbirləri<br>Kitab nəşrləri | 2021 |

### İnsan hüquqları

İnsan hüquqlarının müdafiəsi ilə bağlı öhdəliyimiz yalnız Şirkət daxilindəki əməliyyatlarımız deyil, həm də yerli icma və təchizatçılarımız daxil olmaqla bütün maraqlı qruplar ilə qarşılıqlı əlaqəmizin əsasını təşkil edir. Biz insan hüquqları məsələsinə yerli qanunvericilik, o cümlədən beynəlxalq standartlar, konvensiyalar, protokollar və daxili siyasətlərimiz çərçivəsində yanaşırıq.

Fəaliyyətimizi və insan hüquqlarına münasibətimizi istiqamətləndirmək üçün 2020-ci ildə insan hüquqlarına dair siyasətimizi müəyyən etmişik. Bu siyasət öhdəliklərimizin prinsiplərini müəyyən edir.

**Şəkil 30** İnsan hüquqları ilə bağlı Nar-ın prinsipləri

| | |
|---|---|
| Hörmət prinsipi | Biz fəaliyyətimizi bütün insanların hüquq və ləyaqətinə hörmətlə yanaşaraq həyata keçirməyə çalışırıq. |
| Uyğunluq prinsipi | Biz insan hüquqlarını tənzimləyən qanunlara və beynəlxalq çərçivələrə əməl etməyə çalışırıq. |
| Ehtiyatlılıq prinsipi | Biz heç bir zaman insan hüquqlarının könüllü şəkildə pozulmasında iştirak etməməyə çalışırıq. |
| Ayrı-seçkilik yaratmamaq prinsipi | Davranışımızda ayrı-seçkiliyə yol verməməyə və hər bir kəslə ədalətli davranmağa çalışırıq. |
| Məlumatlılıq prinsipi | Biliklərimizi və öhdəliklərimizə hörməti artırmağa çalışırıq. |

**Figure 31** The scope of our human rights policy

### Müxtəlifliyin dəyərləndirilməsi

Biz yaşından, irqindən, milliyyət və ya etnik mənsubiyyətindən, cinsindən, dinindən, cinsi oriyentasiyasından, əlilliyindən və ya məhkumluğundan asılı olmayaraq, işimizdə bərabərliyi təmin etmək öhdəliyi daşıyırıq.

### Uşaq əməyi

Şirkətimiz uşaq əməyinin istənilən növünü qadağan edir və buna tolerantlıq göstərmir. Biz bütün işçilərimizin Azərbaycan Respublikasının Əmək Məcəlləsinə tamamilə uyğun şəkildə işləmək hüququna malik olduqlarına zəmanət veririk.

### Məlumatların məxfiliyi

Biz düşünürük ki, rəqəmsallaşdırma dövründə kibertəhlükəsizlik ilə bağlı sərt tədbirlər rəqəmsal baxımdan inklüziv cəmiyyət üçün əsas ilkin şərtlərdən birinə çevrilib. Müştərilərimizə aid məlumatların təhlükəsiz şəraitdə mühafizəsi üçün müvafiq tədbirlər görürük.

### Birləşmə və Kollektiv Müqavilə Azadlığı

Biz işçilərimizin cəza tədbirləri riskinə məruz qalmadan həmkarlar ittifaqı yaratmaq və ittifaqlara qoşulmaq hüququnu təmin edirik. Bir Şirkət olaraq, biz birləşmə, kollektiv müqavilə və Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq, digər təsdiqlənmiş müdafiə vasitələrindən istifadə etmək azadlığına hörmətlə yanaşırıq.

### Etik satınalma

Biz başa düşürük ki, satınalmalar vasitəsilə ətraf mühitə və cəmiyyətə dolayı yolla təsir göstəririk. Bu səbəbdən biz satınalma təcrübələrimizin məsuliyyətli və davamlı olmasına çalışırıq. Dolayı yolla baş verə biləcək mümkün mənfi təsirləri azaltmaq məqsədilə satınalma prosesimizi tənzimləyən Təchizatçı Davranış Qaydaları hazırlamışıq.

### Məcburi əmək, insan alveri və müasir köləlik

Şirkətimiz istənilən növ məcburi əməyi, insan alverini və ya müasir köləliyi qadağan edir və buna tolerantlıq göstərmir. Bizim korporativ davranışımız Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğundur. Biz həmçinin hazırda müasir kölәlik ilə bağlı bir qayda üzərində işləyirik.

### İş yerində sağlamlıq və təhlükəsizlik

İşçilərimizin sağlamlığı və təhlükəsizliyi bizim üçün son dərəcə əhəmiyyətlidir. Biz, hər bir riskin aradan qaldırılmasını təmin etmək məqsədilə işçilərin təhlükəsizliyi üçün müntəzəm qaydada ən son həllərdən istifadə edirik.

## Məsuliyyətin götürülməsi

### Məsuliyyətli satınalma

Bir xidmət təminatçısı olaraq, proseslərimizin, həmçinin, təchizat zəncirimizin, tam şəffaf və dayanıqlı olmasını təmin etmək üçün maraqlı tərəflərimiz qarşısında məsuliyyət daşıdığımızı qəbul edirik. Təchizat zənciri ümumiyyətlə risk sahəsi olduğundan, biz təchizat zəncirinin dayanıqlılığına, habelə təchizatçılarımızın tətbiq olunan qanun və qaydalara (komplayensə) uyğunluğu və etik davranışına xüsusi diqqət yetiririk və bu risklərin həlli istiqamətində bir sıra qətiyyətli addımlar atırıq.

**Şəkil 32** Təchizatçı seçimi proseduru




Biz təchizatçıların fəaliyyətini qiymətləndirmək üçün yeni prosedurlar müəyyənləşdirdik və onları fəal şəkildə tətbiq etməyə başladıq. Bu prosedurların köməyilə biz təchizatçılarımızı və sifarişçilərimizi qiymətləndirmə vərəqələri əsasında qiymətləndiririk. Bu prosedurlar obyektiv qiymətləndirmə aparmağımız və maraqların toqquşma ehtimalını müəyyən etmək üçün nəzərdə tutulmuşdur.

2021-ci ildə biz həm də satınalma proseslərimizin rəqəmsallaşdırılmasını həyata keçirməyə başladıq. Biz həmçinin satınalmanın hər bir funksiyası üçün ilin əsas dolayı hədəfi kimi gender bərabərliyini seçmişik.

Dayanıqlı inkişafa can atarkən fəaliyyətlərimizin ictimaiyyətə birbaşa və ya dolayı yolla mənfi təsir göstərməməsinə çalışırıq. Bunu təmin etmək üçün biz təchizat zəncirimizdəki bütün potensial riskləri, o cümlədən müasir köləliyi aradan qaldırmağa çalışırıq. Hesabat ili ərzində biz bu riski aradan qaldırmaq və təchizat zəncirimizdə belə təcrübələrin aşkar edilməməsini təmin etmək üçün prosedur hazırlamağa başlamışıq.

**89%** **2021-ci il üzrə ümumi satınalma büdcəsində yerli təchizatçı nisbəti**

Azərbaycanda qərarlaşmış şirkət olaraq biz yerli bizneslərə bərabər imkanlar tanımaqla ölkə iqtisadiyyatına töhfə verməyə çalışırıq. Buna görə də, fəaliyyət göstərdiyimiz bütün illər ərzində biz həmişə yerli təchizatçılara üstünlük vermişik ki, bu da dolayı iqtisadi təsirdən başqa, daşınma sahəsində istilik effekti yaradan qaz (İEYQ) emissiyalarımızı minimuma endirir.

**Cədvə 12** Ümumi və yerli təchizatçıların sayı, 2019-2021-ci illər

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Təchizatçıların ümumi sayı | 162 | 135 | 134 |
| Yerli təchizatçıların sayı | 142 | 119 | 119 |

### Məsuliyyətli marketinq

Müştəriyönümlü şirkət olaraq biz maraqlı tərəflərimizlə şəffaflığın və açıq ünsiyyətin nə qədər vacib olduğunu anlayırıq. Dünyada daha çox şirkət media əlaqələrində dayanıqlılığa diqqət yetirməyə başladıqca, marketinq kampaniyalarını "yaşıllaşdırma" kimi qələmə vermək, yəni əslində etdiklərini şişirtmək getdikcə daha geniş yayılmış təcrübəyə çevrilir. Bunun əksinə hesab edirik ki, marketinq kampaniyalarımız yalnız həqiqətə və real hadisələrə əsaslanan məlumatları çatdırmalıdır.

Yalnız yaratdığımız real dəyər və təsir haqqında hesabat vermək üçün kampaniyalarımızın və media əlaqələrimizin hansı istiqamətə gedəcəyini müəyyən edən ciddi marketinq strategiyası işləyib hazırlamışıq.

**Şəkil 33** Məsuliyyətli marketinq strategiyamız

**Məsuliyyətli Marketinq**

### Bazar araşdırması

Lazımi marketinq üsullarının seçilməsini təmin etmək üçün ildə iki dəfə müstəqil bazar araşdırması aparırıq.

### İstehlakçı rəyi

Marketinq kampaniyalarımızın istehlakçıların tələblərinə cavab verməsini təmin etmək üçün istehlakçı rəylərini sənədləşdirir və təhlil edirik.

### Mədəni uyğunlaşma

Əmin olmaq istəyirik ki, kampaniyalarımız istehlakçılara şəxsən çatır, məhz buna görə ünsiyyətimizə dair mədəni məlumatlılığı müəyyənləşdiririk.

### Etik qiymətləndirmə

Biz istehlakçıları yanıltmadan qiymətlərlə bağlı açıqlamalarımızda tam şəffaflığı və aydınlığı təmin etməyə çalışırıq.

Məsuliyyətli marketinq strategiyamız dəyərlərimizə uyğunlaşmağa imkan verən strateji prinsiplərimizi rəhbər tutur.

**Şəkil 34** Strateji marketinq prinsiplərimiz

| Strateji prinsip | Yanaşma | Addımlar |
|---|---|---|
| **Dürüstlük** | Çatdırdığımız məlumatlarda dürüstlüyə əhəmiyyət veririk. | Mübaliğəyə yol vermirik<br>Yoxlanılmamış iddialar irəli sürmürük<br>Şəffaflığı təmin edirik |
| **Ünsiyyət** | Maraqlı tərəflərlə ünsiyyət saxlayırıq | İstehlakçıların narahatlıqlarına cavab veririk<br>Aldadıcı marketinq metodlarından qaçırıq<br>Maraqlı tərəflərlə birbaşa ünsiyyət saxlayırıq |
| **Etik normalara uyğunluq** | Gördüyümüz hər bir işdə etik təcrübəyə sadiqik | Stereotiplərdən uzağıq<br>Məhsul təhlükəsizliyini təmin edirik<br>İstehlakçı məlumatlarının təhlükəsizliyini təmin edirik |

# 47

# Planetin mühafizəsi

## Ətraf mühitə mənfi təsirimizi minimal həddə çatdırmaq

**Planetimiz sahib olduğumuz yeganə evdir və onu mümkün qədər yaxşı qorumaq üçün əlimizdən gələni etməkdən daha təbii heç nə ola bilməz.**

### Bərpa olunan enerji və resurs effektivliyi

Nar olaraq, biz "yaşıl" təşəbbüslərdə ön sıralarda olmağımızla fəxr edirik. Şirkət olaraq, ətraf mühitə mənfi təsirimizi minimal həddə tutmaq öhdəliyimizə sadiq qalmaq üçün gördüyümüz tədbirlərə ekoloji göstəricilərimizi yaxşılaşdırmaq da daxildir. Son bir neçə il biz ekoloji göstəricilərimizi yaxşılaşdırmağa, o cümlədən ənənəvi yanacaqlardan asılılığı və İEYQ emissiyalarını azaltmağa kömək edən "yaşıl" təşəbbüsləri həyata keçirmişik.

**Şəkil 35** Nar-ın "yaşıl enerji" təşəbbüsləri

2020-ci ildə Azərbaycanın Səngəçal qəsəbəsində günəş enerjisi ilə işləyən ilk baza stansiyamızı istifadəyə verdik. Fasiləsiz şəbəkə bağlantısını təmin etmək üçün əlavə güc akkumulyatoru ilə təchiz edilmiş hibrid günəş sistemi quraşdırdıq. Bu, pilot layihə olduğundan, yaxın illərdə onu daha da genişləndirməyi düşünürük.

Bütün iş yerlərimizdə, həmçinin ofisimizdə, anbarlarımızda, data mərkəzlərimizdə və baza stansiyalarımızda LED işıqlar quraşdırmışıq.

Enerjiyə daha çox qənaət etməklə istilik dövranını təmin etmək üçün sərbəst (təbii) soyutma sistemi quraşdırmış və data mərkəzlərimizi pəncərə ventilyatorları ilə təchiz etmişik.

Benzin və dizel yanacağına nisbətən daha az İEYQ əmələ gətirdiyi hesab edilən sıxılmış təbii qaza keçmişik. Yaxın illərdə hibrid və ya elektrikli avtomobillərə keçməyi düşünürük.

"Yaşıl" təşəbbüslərimiz nəticəsində 2020-ci ildən etibarən Cədvəl 13-də əks olunan $CO_2$ emissiyaları üzrə bütün göstəricilərdə azalma müşahidə etmişik.

**Cədvəl 13** $CO_2$ emissiyaları, kVt/saat

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Birbaşa (Sahə 1) emissiyalar | 761.69 | 680.92 | 467.33 |
| Dolayı (Sahə 2) emissiyalar | 8,483.84 | 8,159.83 | 5607.25 |
| Sahə 2 İEYQ emissiyaları, abunəçi üzrə | 0.0036 | 0.0038 | 0.0024 |
| Sahə 2 İEYQ emissiyaları, işçi üzrə | 73.77 | 51.97 | 40.63 |

# İstehlakın azaldılması

## Tullantıların yaranması

Ətraf mühitə mənfi təsirimizi minimal həddə çatdırmaqla bağlı görüyümüz işlər çərçivəsində, tullantıların əmələ gəlməsini azaltmaq üçün bir sıra həllər həyata keçirdik. Buna görə də, daxili proseslərimizin əksəriyyətini rəqəmsallaşdırmaqla kağız istehlakımızı xeyli azaltmışıq. Bütün ofislərimiz təhlükəsiz tullantılar üçün nəzərdə tutulan tullantı qutuları ilə təchiz olunub. Ofislərdən yığılan tullantılar daha sonra emal üçün kənara verilir.

Biz başa düşürük ki, telekommunikasiya sektoru ilə bağlı əsas narahatlıq elektron tullantıların yaranmasıdır. Çünki bu tullantılar ətraf mühit üçün təhlükəlidir və onların əksəriyyəti təkrar emal olunmur. Biz ətraf mühitə daha məsuliyyətli yanaşmaq üçün adi SİM kartlarla müqayisədə 50% daha az plastikdən ibarət olan ekoloji təmiz SİM kartlar hazırlamağa başladıq.

## İstehlak

Telekommunikasiya sektorunda böyük həcmdə su istehlak edilməsə də, biz gördüyümüz hər bir işdə səmərəliliyə nail olmağa çalışırıq. 2021-ci ildə ətraf mühitin mühafizəsi ilə bağlı bir sıra təşəbbüslərimizlə su istehlakımızı 23% azaltmağa nail olmuşuq.

**Cədvəl 14** İşçi üzrə su istehlakı və intensivliyi, 2019-2021 -ci illər

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| **Cəmi su istehlakı, m3** | 10,562.8 | 9,849.6 | 7602.4 |
| **Bir işçi üzrə su intensivliyi** | 91.85 | 62.74 | 55.09 |

Eyni zamanda, resurs effektivliyinə yönəlmiş təşəbbüslərimizi həyata keçirməklə enerji istehlakımız azalmaqdadır.

## Son söz

Hesabatın sonuna gəldiyimiz üçün ümid edirik ki, siz - oxucular bizim komandamız və fəaliyyətimizlə daha yaxından tanış oldunuz. Maraqlı tərəflərin uğurumuza səbəb olan, fəaliyyətimizi irəli aparan və cəmiyyətə töhfələr verən insanları tanıması bizim üçün əhəmiyyət kəsb edir.

Ümid edirik ki, dayanıqlı inkişaf haqqında hesabatlarımız vasitəsilə icma və ətraf mühit ilə bağlı görülən işlərin bizim üçün əhəmiyyətini maraqlı tərəflərə çatdıra bilirik. Biz başa düşürük ki, dayanıqlı inkişaf tələblərinə tam cavab verən şirkət olmaq üçün hələ yolun başlanğıcındayıq və inkişaf etdirilməli çox sahələr var. Bununla belə, dünyadakı vəziyyətin ciddiliyini anlayaraq dayanıqlı inkişaf üzrə öhdəliyimizə maksimum səmimi və hörmətlə yanaşırıq. Bir şirkət, müəssisə və ölkədəki dəyişikliklərin iştirakçılarından olaraq daim fəaliyyət və davranışımızın təkmilləşdirilməsi üzərində işləyirik. Biz həqiqətən inanırıq ki, davamlı səylərimiz və əzmimiz sayəsində özümüz üçün müəyyən etdiyimiz yüksək hədəflərə nail olacağıq.

# Əlavə I. Qeyri-maliyyə göstəriciləri cədvəlləri

**Cədvəl 1** Müştərilərimizin rəqəm göstəriciləri

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Cəmi müştərilər | 2,251,471 | 2,170,540 | 2,241,659 |

**Cədvəl 2** Məlumat artımının faiz göstəriciləri, 2019-2021-ci illər

| | 2021 |
|---|---|
| Nar şəbəkəsində məlumat axınında artım (GB) | 6% |
| Bakı | 3% |
| Digər bölgələr | 11% |

**Cədvəl 3** Nar-ın şəbəkə tutumu, 2019-2021-ci illər

| Şəbəkə tutumu | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Orta 3G yükləmə sürəti, Mbit/s | 2,459 | 2,454 | 2830 |
| Orta 4G yükləmə sürəti, Mbit/s | 13,822 | 13,766 | 15,676 |

**Cədvəl 4** İşə götürülən və işdən azad edilən işçilərin sayı, 2019-2021-ci illər

| | 2019 | | 2020 | | 2021 | |
|---|---|---|---|---|---|---|
| Kateqoriya | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| Yeni işə götürülən | 23 | 9 | 30 | 26 | 30 | 11 |
| İşdən azad edilən* | 36 | 30 | 7 | 7 | 42 | 18 |

*İşdən ayrılan ixtisaslaşmış komanda üzvlərinin bir hissəsi Azerfon üçün funksional xidmətlər göstərən şirkətin tərkibinə transfer olunmuşdur.

**Cədvəl 5** Yaş qrupuna görə yeni işə götürülən və işdən azad edilən işçilər, 2019-2021-ci illər

| | 2019 | | | 2020 | | | 2021 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Kateqoriya** | **<30** | **30-50** | **50<** | **<30** | **30-50** | **50<** | **<30** | **30-50** | **50<** |
| **Yeni işə götürülən<br>İşdən azad edilən** | 47 | 66 | 2 | 64 | 90 | 3 | 52 | 82 | 4 |

**Cədvəl 6** Sosial sahəyə sərmayələr, 2019-2021-ci illər

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| **Sosial sahəyə sərmayələrin cəmi məbləği** | 928,945 | 1,093,864 | 5,400,000 |
| **Təhsil ilə bağlı layihələr** | 627,991 | 128,000 | 150,285 |
| **Əlil insanlar ilə əlaqəli layihələr** | 48,900 | 2400 | 53,000 |
| **Milli dəyərlərin təbliği** | 23,554 | 154,610 | 20,180 |
| **COVID-19 pandemiyası dövründə icmaya dəstək layihələri** | - | 506,000 | - |
| **Qarabağ müharibəsi ilə bağlı layihələr** | - | 92,854 | 85,500 |
| **Sağlam həyat tərzinin təbliği - İdman ilə bağlı layihələr** | 210,000 | 210,000 | 460,000 |
| **Ölkədə İT inkişafı ilə bağlı layihələr** | 18,500 | - | 10,900 |
| **Sosial infrastruktur layihələri** | - | - | 4,720,000 |

**Cədvəl 7** Kateqoriya və cinsinə görə işçilərin sayı, 2020-2021-ci illər

| | 2020 | | 2021 | |
|---|---|---|---|---|
| **Kateqoriya** | **Kişi** | **Qadın** | **Kişi** | **Qadın** |
| **İcraçı rəhbərlik** | 26 | 27 | 11 | 7 |
| **Mütəxəssis** | 43 | 36 | 62 | 50 |
| **Digər** | 17 | 8 | 1 | 7 |
| **Cəmi** | 86 | 71 | 74 | 64 |

**Cədvəl 8** Məşğulluğun növünə görə işçilərin sayı

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| **Tam ştatlı** | 114 | 155 | 136 |
| **Yarımştat** | 1 | 2 | 2 |

**Cədvəl 9** Risk qrupunda olan işçilərin sayı, 2019-2021-ci illər

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| **Əlilliyi olan işçilər** | 3 | 3 | 3 |
| **Məcburi köçkün statuslu işçilər** | 6 | 6 | 4 |

**Cədvəl 10** İllik ödəniş nisbəti, 2019-2021-ci illər

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| **Ən yüksək vəzifəli şəxsə illik ümumi ödənişin (həmin şəxs istisna olmaqla), bütün işçilərə verilən orta illik ümumi ödənişə nisbəti** | 39 | 56 | 66.03 |

**Cədvəl 11** İlkin əmək haqqının yerli minimal əmək haqqına nisbəti, 2019-2021-ci illər

| | 2021 | |
|---|---|---|
| Kateqoriya | Kişi | Qadın |
| **Yerli minimal əmək haqqı ilə müqayisədə standart ilkin əmək haqqı, cinslər üzrə** | 1 | 1 |

**Cədvəl 12** Kateqoriya və cinsə görə işçilərə ayrılmış təlim saatlarının ümumi sayı, 2019-2021-ci illər

| | 2019 | | 2020 | | 2021 | |
|---|---|---|---|---|---|---|
| Kateqoriya | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| İcraçı rəhbərlik | 0 | 0 | 4 | 42 | 567 | 380 |
| Mütəxəssis | 7 | 9 | 139 | 0 | 453 | 400 |
| Digər | 27 | 23 | - | - | - | - |
| Təlim saatlarının cəmi sayı | 34 | 32 | 143 | 42 | 1020 | 780 |

**Cədvəl 13** Cinsə görə fəaliyyət göstəricilərinin artırılması və karyera inkişafı ilə bağlı müntəzəm rəylər alan işçilər, 2019-2021-ci

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Kişi | 100% | 100% | 100% |
| Qadın | 100% | 100% | 100% |

**Cədvəl 14** Ümumi və yerli təchizatçıların sayı, 2019-2021-ci illər

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Təchizatçıların ümumi sayı | 162 | 135 | 134 |
| Yerli təchizatçıların sayı | 142 | 119 | 119 |
| Yerli təchizatçıların ümumi büdcədə payı | 88% | 88% | 89% |

**Cədvəl 15** SƏTƏMM xərcləri, AZN

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| İş şəraitinin yaxşılaşdırılması ilə bağlı xərclər | 41,000 | 93,000 | 50,100 |
| COVID-19 ilə əlaqəli xərclər | - | 204,000 | 400,000 |

**Cədvəl 16** İEYQ emissiyaları, $CO_2$

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| **Birbaşa (Sahə 1) emissiyalar** | 761.69 | 680.92 | 467.33 |
| **Dolayı (Sahə 2) emissiyalar** | 8,483.84 | 8,159.83 | 5607.25 |
| **Sahə 2 İEYQ emissiyaları, abunəçi üzrə** | 0.0036 | 0.0038 | 0.0024 |
